Bu bir xalq qəzetidi
ƏDALƏT

## Mehriban Əliyeva: Hər bir Azərbaycan əsgərinin həyatı və sağlamlığı üçün dua edirəm



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Instagram" hesabında paylaşım edib.**

Mehriban Əliyeva əsgərlərə həsr edilmiş musiqi paylaşıb və onlara dua etdiyini bildirib:

**"Azərbaycan əsgərinin həyatı və sağlamlığı üçün dua edirəm! Uca Tanrı Vətən naminə bu müqəddəs mübarizədə onlara yar olsun!**

**Qarabağ Azərbaycandır!"**

## Prezidentin köməkçisi: "Tərtər erməni nasizminə qarşı Azərbaycanın Stalinqradıdır"



**Ermənistanın humanitar atəşkəslə bağlı "öhdəliyi" tamamilə riyakarlıqdır.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında yazıb.

"Səhər saatlarından etibarən Tərtər şəhəri ağır artilleriya hücumuna məruz qalır. Tərtər rayonuna və onun kəndlərinə 100-dən çox top mərmisi düşüb, 6 mülki şəxs yaralanıb, bir mülki şəxs həlak olub. Tərtər erməni nasizminə qarşı Azərbaycanın Stalinqradıdır", - deyə H.Hacıyev qeyd edib.

## Kəmaləddin Heydərov: "Dağılmış evlərin hamısı yenidən tikiləcək"

Bax:səh-2

*Əbülfət MƏDƏTOĞLU,*
*Əməkdar jurnalist*

## BÖYÜK QAYIDIŞ

Bax:səh-2

## "Türkiyə istənilən şəraitdə Azərbaycana dəstək verəcək"



**Rəsmi Ankara istənilən şəraitdə həm döyüş meydanında, həm də danışıqlar masasında Azərbaycana dəstək verəcək.**

"Anadolu" agentliyi xəbər verir ki, bu sözləri Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu isveçli həmkarı Ann Kristin Linde ilə birgə mətbuat konfransında deyib. Türkiyə XİN başçısı vurğulayıb ki, Cənubi Qafqazda atəşin dayandırılması çağırışları ilə yanaşı, Azərbaycanın işğal edilmiş torpaqlarından erməni qoşunlarının çıxarılması tələblərini də səsləndirmək lazımdır.

Mövlud Çavuşoğlu qeyd edib ki, yalnız bu halda beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına real cəhdləri haqqında danışmaq mümkün olacaq. Nazir BMT-nin Təhlükəsizlik Şurasının və ATƏT-in Dağlıq Qarabağ münaqişəsi üzrə həll edilməmiş qərarlarını xatırladıb.

## TÜRKİYƏ ARAR VƏ BULAR

**Oxudum ki, Ermənistan Dağlıq Qarabağ məsələsində Türkiyənin arabuluculuğuna etiraz edib və Rusiya da bu məsələdə Ermənistanın tərəfini saxlayıb. 27 ildi Rusiya, ABŞ və Fransa ATƏT-in Minsk qrupu adında bir mənasız təşkilat yaradıb və bunlar arabuluculuq edirlər. Əslində ermənilərə mamaçalıq edirlər. Artıq sözün bitdiyi yerdi.**

Hadisələrin gedişatı göstərir ki, bölgədə Türkiyə artıq söz sahibidi, istəyir Suriya olsun, istəyir Liviya olsun, istəyir hara olsun. Ümumiyyətlə, dünya gücləri Türkiyə ilə hesablaşmaq zorundadırlar, istəsələr də, istəməsələr də.

Onu da qeyd edim ki, heç Türkiyəyə arabuluculuq yaraşmır. Türkiyə arar və bular, day arxasını yazmıram, eldən ayıbdı.

## NAZARBAYEV NƏLƏRİ İTİRDİ?



**Hamımız onu sevirdik, bütün Türk dünyası onu sevirdi və Heydər Əliyevdən sonra onu keçmiş Sovetlər İttifaqında Türk dünyasının lideri kimi qəbul edirdi.**

Və tarixə düşə bilərdi. Bu fürsəti əldən qaçırdı, Türk dünyasının ağsaqqalı ola bilmədi. Heç olmasa bitərəf mövqe tut, hər şeyi itirmə, yoldaş Nazarbayev.

Amma içimizdə hələ sizə sevgi qalıb.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 139 (5799) 15 oktyabr 2020-ci il | Qiyməti 30 qəpik

## Erməni təxribatı nəticəsində ölənlərin sayı 43 nəfər oldu



**Azərbaycanın Baş Prokurorluğu sentyabrın 27-dən bu günə qədər Ermənistan silahlı qüvvələrinin dinc sakinlərimizə qarşı törətdiyi təxribatlar nəticəsində ölən və yaralananların siyahısını açıqlayıb.**

Baş Prokurorluqdan Adalet.az-a verilən məlumatda bildirilir ki, bu günə qədər ermənilərin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində 43 nəfər dinc sakin ölüb. Hadisələr nəticəsində 214 nəfər sakin xəsarət alıb, 1505 ev, 66 çoxmənzilli yaşayış binası, 277 mülki obyekt isə yararsız vəziyyətə düşüb.

# Ordumuz daha 8 kəndi işğaldan azad etdi



**Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**Adalet.az-ın məlumatına görə, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "Twitter" hesabında yazıb.**

## "Rahat uyu, Məmməd Araz, Azərbaycan "Vətən" deyir!"

Bax:səh-3

## "Azərbaycan sadəcə öz torpaqlarını işğaldan azad edir"



**Azərbaycan sadəcə öz torpaqlarını işğaldan azad edir. Adalet.az-ın məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

Prezident qeyd edib ki, Ermənistan həm işğalçı, həm də atəşkəsi pozan tərəfdir: "Ermənistanın hədəfi atəşkəs deyil. Belə olmasaydı, Ermənistan atəşkəsdən sonra Azərbaycan şəhərlərinə raket zərbələri endirməzdi".

Prezident vurğulayıb ki, Ermənistanı cəsarətləndirən beynəlxalq ictimaiyyətin onların aqressiyasına göz yummasıdır.

## Həmsədrlərdən çağırış

**Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistanın Xarici işlər naziri Zoqrab Mnatsakanyanla danışıqlardan sonra ATƏT-in Minsk qrupunun həmsədrləri danışıqlar yolu ilə həllə nail olmaq məqsədilə Dağlıq Qarabağda siyasi tənzimləmə prosesinin mühüm məsələləri üzrə tərəflərlə işini davam etdirir.**



Adalet.az-ın məlumatına görə, bu barədə ATƏT-in Minsk qrupunun bəyanatında deyilir.

Bəyanatda qeyd olunur ki, həmsədrlər Dağlıq Qarabağ münaqişəsi çərçivəsində davam edən zorakılıqlarla bağlı narahatlığını ifadə edir:

"Həmsədrlər region üçün faciəvi nəticələrin qarşısının alınması üçün humanitar atəşkəs rejimi çərçivəsində tərəflərin öhdəliklərinin tam icrası üçün dərhal addımlar atmağa çağırır.

Həmsədrlər təkrar edir ki, mülki əhali arasında itkilər heç bir halda qəbulolunmazdır. Onlar tərəfləri həlak olanların, əsirlərin və saxlanan şəxslərin mübadiləsinin təmin olunması üçün humanitar atəşkəs rejiminə əməl olunması ilə əlaqədar dərhal zəruri addımlar atmağa, eləcə də atəşkəs rejiminə nəzarət mexanizmini dərhal razılaşdırmağa çağırır".

## Düşmənin 7 tankını, 2 müşahidə məntəqəsini məhv edən əsgərlər





**Azərbaycan əsgəri yeni tarix yazır!**

**Şəkildə gördüyünüz əsgər Hünər Məmmədovdur.**

O, silahdaşları Elvin Mədətəov və Rüfət Əsədullayevin köməyi ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı düşmənin 7 tankını, 1 PDM-ni, 1 silah-sursat dolu avtomobil texnikasını və 2 müşahidə məntəqəsini məhv edib.

**Düşmənə layiqli cavablar verən igid döyüşçülərimizə eşq olsun!!!**

## Şoyqu Moskva razılaşmasından danışdı



**Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Azərbaycanın Müdafiə naziri Zakir Həsənov və Ermənistanın Müdafiə naziri David Tonoyanla telefon danışıqları keçirib. Bu barədə Rusiya Müdafiə Nazirliyi bildirib.**

Qeyd olunub ki, rusiyalı nazir tərəfləri Moskvada əldə olunmuş razılaşma çərçivəsində öhdəliklərə tam şəkildə əməl etməyə çağırıb. Xatırladaq ki, oktyabrın 10-da Moskvada Azərbaycan, Ermənistan və Rusiya XİN rəhbərləri arasında humanitar atəşkəs barədə razılıq əldə olunub.

## Ceyhun Bayramov: "Türkiyə dəstəyini bir daha ifadə etdi"



**Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə telefon danışığı olub.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycanın XİN rəhbəri "Twitter" hesabında yazıb.

"Xarici İşlər naziri, qardaşım ilə telefon danışığı zamanı bölgədəki son vəziyyət ətrafında fikir mübadiləsi aparıldı. Mülki şəxslərin hədəfə alınması ilə bağlı ciddi narahatlığını bildirən nazir Çavuşoğlu, Türkiyənin Azərbaycanın haqlı mövqeyinə dəstəyini bir daha ifadə etdi".

## Rusiyalı jurnalist: Xankəndi tam boşalıb



**Rusiyanın "Mash" "Telegram" kanalının jurnalisti Xankəndində olub, şəhərdəki son vəziyyət barədə reportaj hazırlayıb.**

Jurnalist Xankəndinin mərkəzi stadionunda baş çəkib, lakin orada məsul şəxslərdən kimsənin qalmadığını şahidi olub. Reportyor şəhərdə fəaliyyət göstərən mobil şəbəkənin tamamilə sıradan çıxdığını, işıqforların belə işləmədiyini vurğulayıb.

## Paşinyan geri çəkildiklərini etiraf etdi

**İtkilərimizin sayı böyükdür.**

**Trend-in məlumatına görə, bunu xalqa müraciətində Ermənistan baş naziri Nikol Paşinyan deyib.**

**Paşinyan bildirib ki, hazırda itkilərimizin sayı böyükdür. Ermənistan qoşunları şimal və cənub istiqamətində geri çəkilməli olub.**

## "Ermənistanın raket kompleksləri məhv edilməsəydi..."

**Oktyabrın 12-də Mingəçevir və Gəncə şəhərinə Ermənistan ərazisindən raket zərbəsi endirilib. Əgər dünən həmin raket kompleksləri məhv edilməsəydi, bu raketlər Bakıya da çata, hətta Bakını ötə də bilərdi.**

Bunu xarici ölkələrin səfirləri, Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi atteşelər və beynəlxalq təşkilatların (BMT, Aİ, BQXK) ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə Hərbi Hava Qüvvələri komandanının müavini, Qərargah rəisi general-mayor İkram Əliyev bildirib. General-mayor deyib ki, ballistik raketlərə qarşı xüsusi əməliyyat nəticəsində oktyabrın 12-də Qubadlı rayonu ərazisində 1 ədəd Toçka-U raketi məhv edilib: "Oktybarın 14-də gecə saat 1.00 radələrində 2 ədəd, səhər 8.30 radələrində 1 ədəd olmaqla, "Elbrus" raket kompleksi Azərbaycan Ordusu tərəfindən aşkarlanaraq məhv edilib. 300 km atış məsafəsinə sahib "Elbrus" raketi Dağlıq Qaprabağa gətirilərdisə, onun mərmisi Bakıya da çatardı. Əldə etdiyimiz məlumatlara görə, Dağlıq Qarabağda yerləşən ümumqoşun hissələrində belə raket yoxdur. Bu, Ermənistanın 71-ci raket alayanın tərkibindədir". Raket komplekslərinin vurulması anının görüntüsünü təqdim edən HHQ-nin Qərargah rəisi qeyd edib ki, həmin raketlərin atışa hazırlandığı da görüntüdə aydın görünür.

## 369 nəfər koronavirusa yoluxub, 102 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 369 yeni yoluxma faktı qeydə alınıb, 102 nəfər müalicə olunaraq sağalaraq evə buraxılıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 42 750 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 39 570 nəfər müalicə olunaraq sağalıb, 616 nəfər vəfat edib, aktiv xəstə sayı 2 564 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 734, ötən müddət ərzində isə ümumilikdə 1 193 870 test aparılıb.

## "Facebook" peyvənddən imtinaya çağıran elanları bloklayacaq



**Peyvənddən imtinaya çağıran elanlar "Facebook"da bloklanacaq. Bu barədə şirkətin saytında məlumat verilib.**

Qeyd edilir ki, belə bir siyasətin məqsədi ictimai sağlamlıq səylərinə zərər verə biləcək yalnış məlumatlarla mübarizə aparmaqdır. Peyvənddən imtinanı açıq şəkildə tövsiyə edən reklam qadağan edilir.

**Amma peyvənd sahəsində bu və ya digər dövlət siyasətini tənqid edən nəşrlərin qadağan olunmayacağı qeyd olunur.**

## *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## Prezident: “Bizi heç kim dayandıra bilməz”



**Ermənistanın Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə almasından məqsəd panika, xaos, qorxu yaratmaqdır. Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişib. Eyni zamanda, yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bu sözləri Türkiyənin ”Haber Türk” telekanalına müsahibəsində düşmənin mülki əhaliyə hücumlarının məqsədi barədə danışarkən deyibhərbi əməliyyatlkünlüyü barədə sualını cavablandırarkən söyləyib.

Azərbaycan Prezidenti deyib ki, dövlətimizin güclü iradəsi var, güclü ordumuz var. Məhz buna görə bu xain hücumlar bizim iradəmizi qıra bilmədi. Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir... Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər. Onlar nə qədər cəsarətli, nə qədər qürurlu insanlardır ki, orada düşmənin atəşi altında yaşayır, qurur, övladlarını böyüdür. Azərbaycan xalqı, bax, bu xalqdır.

Düşmənin bu xain hücumlarından digər bir məqsədin Azərbaycanı dayandırmaq olduğunu bildirən dövlətimizin başçısı sözünə davam edərək deyib: ”Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!”.

## “İcazəmiz olmadan hər hansı ölkə sülh güclərini torpağımıza göndərə bilməz”

**Hər kəs anlamalıdır ki, bu gün sülh güclərinin göndərilməsi deyəndə Azərbaycan torpaqlarından, suveren Azərbaycan ərazisindən söhbət gedir. Bizim icazəmiz olmadan hər hansı ölkə sülh güclərini bizim torpağımıza göndərə bilməz. Bu, qanuna, beynəlxalq hüquqa ziddir. Bu, qəbiledilməzdir. Ona görə belə bir narahatlıq bizdə yoxdur.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Türkiyənin ”Haber Türk” telekanalına müsahibəsində Qarabağa sülh güclərinin göndərilməsi ilə bağlı fərziyyələrə münasibət bildirərkən deyib.

”Belə səylər ola bilər, belə istəklər ola bilər. Mən bunu istisna etmirəm. Ancaq bütün məsələlər masa üzərində olmalıdır. Onu da bildirməliyəm ki, müzakirə mövzusu olan baza prinsiplərində sülh güclərinin göndərilməsi ən son mərhələdə nəzərdə tutulur. Yəni, ilk növbədə, bayaq qeyd etdiyim məsələlər həll edilməlidir - torpaqların boşaldılması, məcburi köçkünlərin qaytarılması, nəqliyyat məsələlərinin, sərhədlərin açılması, ondan sonra ticarət. Ondan sonra sülh güclərinin gətirilməsi də istisna deyil. Ancaq bu 30 il ərzində nəzərə alsaq ki, müzakirə müddətində biz müsbət nəticəyə yaxınlaşmadıq, bu məsələ heç müzakirə də olmayıb. Ona görə bu məsələ ilə bağlı hər hansı bir fərziyyə, istək ola bilər. Ancaq Azərbaycanın razılığı olmadan bu, mümkün deyil”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

## İlham Əliyev: “Türkiyənin iştirakı olmasa, bu məsələ həll edilə bilməz”

**Minsk qrupu 1992-ci ildə yaradılıb. O zaman hansı əsaslar buna səbəb oldu biz bilmirik. O qrupda elə ölkələr var ki, heç bu bölgə ilə maraqlanmırlar. Heç bu bölgədə onların hər hansı maraqları da yoxdur, təsiri də yoxdur. Ona görə əgər bu münaqişənin həll edilməsini istəyirlərsə, - biz bunu istəyirik, - elə ölkələr olmalıdır ki, onlar real həyatda sülhün təmin olunmasına xidmət edə bilsinlər.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Türkiyənin ”Haber Türk” telekanalına müsahibəsində səsləndirib.

”Təbii ki, biz qardaş Türkiyəni bu prosesdə görürük. Biz bunu alqışlayırıq. Biz bilirik ki, Minsk qrupu ATƏT tərəfindən qurulmuşdur və ATƏT-in öz qaydaları var... Əsas odur ki, Türkiyə bu masada olsun. Onsuz da var. Çünki əziz qardaşım, hörmətli Rəcəb Tayyib Ərdoğan Qarabağ məsələsi ilə bağlı hörmətli Putinlə dəfələrlə görüşmüşdür, dəfələrlə danışmışdır. Artıq uzun illərdir, yəni, on ildən çoxdur ki, bu məsələ Türkiyə-Rusiya gündəliyində duran bir məsələdir. Mənim bundan xəbərim var. Həm Türkiyə Prezidenti, həm Rusiya Prezidenti bu haqda mənə demişdilər. Onsuz da Türkiyə var. İndi daha çox, daha böyük həcmdə, daha böyük miqyasda var”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Dövlətimizin başçısı sözünə davam edərək deyib: ”Bu gün cənab Mövlud Çavuşoğlu cənab Lavrovla, Türkiyənin Müdafiə naziri cənab Hulusi Akar cənab Şoyqu ilə telefonla danışırlar. Kim deyə bilər ki, Türkiyə yoxdur. Türkiyə yoxdursa, nə üçün danışırsınız. Türkiyə var. Biz də əlimizdən gələni edəcəyik ki, bundan sonra da olsun. Çünki Türkiyənin burada iştirakı olmasa, bu məsələ həll edilməz. Bunu hər kəs anlamalıdır”.

# BÖYÜK QAYIDIŞ

## Gözlədiyimiz o an gəlib çatdı

**Tam səmimi şəkildə etiraf etmək istəyirəm ki, sentyabrın 27-dən sonra dövlətimə də, xalqıma da, bayrağıma da münasibətimdə ölçüyə gəlməz bir dəyişiklik var. Yəni bu dəyişikliyi 2016-nin aprel döyüşündə, 2020-nin iyul ayında Tovuz döyüşündə yavaş-yavaş hiss etməyə, duymağa, yaşamağa başlamışdım. Elə bil ki, çevrəmdə hər şey dəyişirdi. İllərlə daşıdığım qaçqın adına ”torpaqları qoyub qaçdınız” töhmətinə və bir də yeri gəldi-gəlmədi, ”lazım gəlsə bunu edərəm, onu edərəm deyimlərinə” o qədər yüklənmişdim ki, bunun nə vaxtsa bitəcəyinə ümidim öləzimişdi. Elə bilirdim ki, qələbə sevincini yaşamayacam... elə biliridm ki, cəbhədən xoş müjdə almayacam... elə bilridim ki, o yerləri bir də görməyəcəm...**



Amma Allahın varlığına inamım birmənalıdı! Bu gün isə Ali Baş Komandanımıza və Ordumuza güvənim birmnənalıdı. Çünki bütün ağırlığımı bir əmrlə, bir hücumla çiyinlərimdən götürüblər. Və mən demək olar ki, yuxularımın, xəyallarımın ətəyindən tutub harasa getmirəm daha. Əksinə, yuxularımı, xəyallarımı gerçək görürm. Hər gün gözüm ekranda, qulağım səsdədi. İllah da ki, son dəqiqə xəbərlərini ac gözlüklə izləyirəm. Bu xəbərlər mənə müjdə verir, mənə yaşam stimulu verir. Sanki o xəbərlərə qoşulub özüm də həm səngərlərdə oluram, həm döyüşlərin iştirakçısına çevrilirəm. Və...



Bəli, bu gün Azərbaycan 30 illik ağrı-acını, ümidsizliyi, adamların içərisindəki xiffəti və nəhayət, artıq kök atmış həsrəti külə çevirdi, sovurdu havaya, səpdi düşmənin başına. Həmin məqamda Ali Baş Komandan dedi ki, ***”Biz bu torpaqlara gəldik, bu, bizim dədə-baba torpaqlarımızdı. Bizi oradan heç bir qüvvə çıxara bilməz. Bunu nə qədər tez anlasalar, onlar üçün o qədər də yaxşı olacaq. Çünki dayanıqlı atəşkəs üçün hər iki tərəfin buna sadiq olması lazımdı. Biz buna sadiqik”.*** Həqiqətən də biz torpaqlarımıza qayıdırıq, doğulduğumuz yurdlara, ocaqlara dönürük. Ata-babalarımızın məzarlarını örtməyə qayıdırıq... uşaqlıq xatirələrimizin sapı qırılmış dənələrini yenidən sapa düzməyə gedirik... Biz əkdiyimiz ağacların kölgəsində oturub 30 ilin acısını bir sevinclə ürəyimizdən silib atmağa tələsirik...

Bəli, bütün bunları indi xəyal kimi, yuxu kimi, fərziyə kimi, güman kimi təsəvvür etmirəm, gerçəklik kimi görürəm. Ən azından ona görə ki, doğulduğum bölgənin, yəni keçmiş Hadrud rayonunun mərkəzində mənim əsgərimin addım səsləri eşidilir. Hadrutun başının üstündəki teleqüllənin olduğu yüksəklikdə mənim Üçrəngli BAYRAĞIM dalğalanır. Mən onu ekrandan izləyəndə göz yaşlarımı saxlaya bilmədim. O yerdən ancaq məlumatı olan, amma əyani görmək xoşbəxtliyini hələ ki, yaşamamış övladlarım bir az təəccüb və heyrətlə baxdılar mənə. Sonra anladılar. Onlara söylədiklərim işimə yaradı. Və hamısı da bir səslə dedi ki, ”biz də ora gedəcəyik”.

Hə, bax, bu xoş anları, ürəyimi dağa döndərən anları mənə bağışlayan o Bayraq, o Komandan, o Əsgər oldu. Deməli, 30 il nə çəkdimsə, nə yaşadımsa, həmin o bağışlananın odunda, atəşində bitdi! Mən sanki yenidən doğuldum. Tuğlu günlərimə, uşaqlıq illərimə, qoyub gəldiyim həyata döndüm. İndi bu yazını o günlərin havasıyla, o günlərin artıq məni bürüyən ovqatıyla diqtə edirəm. Bu, qaranlıqdan işığa çıxmaqdı. Və mən bu işığa görə, Komandanıma, Bayrağıma, Əsgərimə minnətdaram. Təbii ki, müharibə hələ bitməyib. Düşmən ağ bayraq qaldırmayıb. Çünki arxalandığı, qoltuğuna girdiyi, Ali Baş Komandanımızın dediyi kimi, dabanını yaladığı yerlər, ölkələr, ölkə başçıları var. Amma bu heç nəyə yarayan deyil. Ona görə ki, Azərbaycan Prezidenti xalqa müraciətində birmənalı şəkildə dedi ki, ***”Bizi heç kim yolumuzdan, əqidəmizdən döndərə bilməz. Dünyada elə bir güc sahibi yoxdur ki, bizə o torpaqlara getməyə, o müqəddəs ocaqlara dönməyə icazə verməsin. Biz ora gedəcəyik, biz oranı götürmüşük, axıra qədər də götürəcəyik. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!”.***

Bəli, indi səfərə hazırlaşan bir insan ovqatındayam. Özü də sevinə-sevinə, ürəklə getmək istəyən bir insan kimi. Gələndə qovulmuşdum, göz yaşlarıyla ayrılmışdım... Yanan evimə baxıb, dağılan, yarmalanan yurduma baxıb fəryad qoparmışdım... İndi isə yenə sevinc göz yaşlarıyla dönürəm. Çünki Qələbəylə gəlirəm. Gəlirəm ki, o dağılan, o yandırılan evimi, yurdumu yenidən abad edim. Bunun üçün ürəyimdə, canımda güc də var, təpər də. Üstəlik, Ali Baş Komandanımızın dedi kimi, ***”Biz o yerləri yenidən abadlaşdıracağıq, yenidən kəndləri, şəhərləri daha gözəl, daha müasir üslubda tikib adamlarımızı, o yerlərin sakinlərini həmin ünvanlarda yerləşdirəcəyik”.***

Bax, elə prezidentimiz cənab İlham Əliyevin söylədiyi bu fikrin özü də bizim Böyük qaydışımızın, yurda dönüşümüzün hər kəs üçün edilmiş çağırışıdı. Deməli, hazırlaşmaq, yır-yığış etmək, qaçqınlıq adlı yükün altından çıxmağın zamanı gəlib çatıb. Necə deyərlər, Qarabağa doğru dönüş üçün atlanmaq vaxtıdı. Qələbəmiz, Dönüşümüz mübarək olsun!

**Əbülfət MƏDƏTOĞLU,**
**Əməkdar jurnalist**

## Kəmaləddin Heydərov: “Dağılmış evlərin hamısı yenidən tikiləcək”



**"Ermənilərin Gəncə şəhərinə atdığı raketi dərhal müşahidə kamerasından gördük. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları, xilasediciləri, xüsusi riskli dəstənin əməkdaşları dərhal hadisə yerinə cəlb olundu, xilasetmə və axtarış işlərinə başladılar. Bildiyimiz kimi, hadisə zamanı dağıntılar altından 9 cəsəd çıxarılıb, 35 nəfər yaralanıb. Çox təəssüflər olsun ki, yaralananlar arasında uşaqlar da var". Bunu Gəncədə səfərdə olan Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov deyib.**

Nazir bildirib ki, düşmənin Gəncəni bombalaması erməni faşizminin, Ermənistanda olan hərbi-siyasi rejiminin illər boyu Azərbaycan əleyhinə apardığı iyrənc siyasətinin nəticələrindən biridir:

"Onlar bunu tək bu gün törətmirlər, 1988-ci ildən başlatdıqları bu iyrənc siyasət 30 ildən artıqdır ki, davam edir. Bunlardan ən faciəlisi 1992-ci ildə olan Xocalı soyqırımıdır ki, orda həlak olanların heç biri hərbçi deyildi. Onlar bu vəhşiliyi, bu soyqırımı azərbaycanlılara qarşı törədirlər, Gəncədə törətdikləri də eyni vəhşiliyin davamıdır".

K. Heydərov qeyd edib ki, Ermənistan Ordusu və hərbi-siyasi hakimiyyətinin dərsi verildi: "Sentyabrın 27-dən etibarən biz xalq və dövlətin möhtəşəm birliyinin bir daha şahidi oluruq. Ermənistanda hakimiyyətlə xalq arasında belə birlik heç vaxt olmayıb və olmayacaq. Çünki bizim Ali Baş Komandanımız başda olmaqla əhalimiz, hərbiçilərimiz hamısı müsəlləh əsgər kimi çalışırlar, vuruşlar. Vətəndaşlarımızda heç vaxt indiki kimi ruh yüksəkliyi olmayıb. Möhtərəm cənab Prezident də ötən gün qeyd elədi ki, bugünkü qələbə, zəfər Azərbaycan tarixində heç vaxt olmayıb. Azərbaycanın bir çox sahələrdə, iqtisadi, siyasi, diplomatik qələbələri olub, lakin bu qələbə tarixi qələbədir.

Biz hamımız başda cənab Ali Komandan olmaqla, çox hörmətli Mehriban xanım olmaqla - bayaq biz gələndə 5-6 yaşlı uşaqlar əsgəri salam verdilər - onlar olmaqla bu tarixi birgə yaşayırıq. Xalqımızla, ordumuzla, rəhbərimizlə, uşaqlarımızla, ailələrimizlə bu qələbəni yaşayır. Bu qələbənin sevinci, tarixi nəticəsi Azərbaycan üçün çox gözəl olacaq".

K. Heydərov deyib ki, ermənilər mülki əhaliyə iriçaplı silahlardan atəş açır, yaşayış yerlərinə raket atırlar: "Biz bunları dünyaya çatdırırıq. Dünya artıq bunları görür. Bir-iki ermənipərəsti çıxmaq şərtilə dövlətin Azərbaycanın bu işinə hamı haqq qazandırır.

Hamı bilir ki, biz haqq yolundayıq. Torpaqlarımız işğal olunub, biz müharibəni öz torpaqlarımızda aparırıq. Biz bütün işğal olunmuş torpaqlarımızı axıra qədər azad edəcəyik. Bu yolda qurban gedən insanlara Allahdan rəhmət diləyirəm. Bütün şəhidlərimizə, bu yolda canını fəda edən insanlarımıza Allah rəhmət eləsin. Biz güclüyük, Ali Baş Komandanımızla birgə bütün əhali bir olaraq qələbə qazanacağıq. Əvvəlki devizimiz yadınızdadır - "Biz birlikdə güclüyük". İndi də yeni devizimiz "Qarabağ Azərbaycandır!" Biz bununla irəli getməliyik. Hamıda olan ruh yüksəkliyi saxlanmalıdır. Çünki bizim qarşıda çox işimiz var".

Nazir qeyd edib ki, dağılmış evlərin hamısı yenidən tikiləcək: "Hadisə olan gündən, həmin gecənin səhərində bəri bizim bütün qurumlarımız, həmçinin Tikintiyə Nəzarət şöbəsi hadisə yerində araşdırmalar aparır. Onlar nə qədər evin hadisədən zərər çəkdiyini hesablayırlar. Möhtərəm, cənab Prezidentin tapşırığıdır ki, bir nəfər də olsun evindən, itirdiyi başqa bir şeydən zərər çəkməsin. Onların hamısı bərpa olunacaq. Onların hamısı yenidən sökülüb tikiləcək. Bəzilərinə evlər veriləcəkdir. Vətəndaşlarımız çəkdiyi bütün zərərlər tərəfimizdən bərpa olunacaq. Gəncə camaatının bununla bağlı heç bir narahatlığı olmasın".

# Müzəffər Ordumuz hər bir şəhidimizin qisasını alır

## Generalımızın da, polkovnikimizin də!

**Atəşkəs sazişi imzalanan gündən (1994-cü il 12 may) Ermənistan Silahlı Qüvvvələri, başqa sözlə desək, işğalçı və terrorçu ermənilər dəfələrlə atəşkəsi pozub, nəinki ordumuzun əsgərlərini , eləcədə dinc əhalini, günahsız uşaqları, qadınları, qocaları qətlə yetirib. Fevral, Avqust, Aprel döyüşləri, Tovuz hadisələri və digər qanlı olaylarla yadda qalan erməni təcavüzkarlığı dediklərimizə sübutdur. Atəşkəs rejimi dövründə hər atılan güllə, Vətənin köksünə, vətəni Vətən edən oğulların sinəsinə dəydi, hər birimizi dərindən yaraladı.**

### *Bizim şəhid general...*

Bizi daha çox sarsıdan isə bu ilin iyulun 14-ü Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər zamanı müdafiənin ön xəttində olan, Azərbaycan Ordusunun general-mayoru Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin qəhrəmancasına şəhid olmasıydı. Bu həmin igidimiz idi ki, 2011-ci ildə Kəlbəcər ərazisindən qızıl çıxarılması və daşınmasına mane olmaq üçün şəxsən özünün başçılıq etdiyi əməliyyatla əsas dağlarda yerləşən ən vacib mövqeni ələ keçirərək, Azərbaycanın təbii sərvətlərinin düşmən əlinə keçməsinin qarşısını almışdı. Məhz o əməliyyatdan sonra Ermənistan üçün Kəlbəcər qızılını çıxarıb Yerevana nəql etmək qeyri-mümkün əməliyyatlardan birinə çevrildi. Bundan əlavə, 2016-cı ilin aprel döyüşləri zamanı Talışdağ istiqamətində mövqeləri gücləndirərək açıq döyüşə girib və düşmən tərəfin onlarla əsgərini məhv etmişdi. O, aprel döyüşlərinin qəhrəmanı hesab edilirdi. Talış yükəkliklərində 7 döyüş postu var. Hətta onlardan biri "Polad postu" adlanır. Həmin postu 2016-cı ilin aprelində polkovnik Polad Həşimov azad etmişdi və onun şərəfinə adını vermişdilər.

2014-cü ilin 25 iyununda Azərbaycan Prezidentinin sərəncamı ilə polkovnik-leytenant Polad İsrayıl oğlu Həşimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdu. 2019-cu ildə isə general-mayor rütbəsinə layiq görülmüşdü. Sarsıntımızı paylaşmağa-yüngülləşdirməyə macal tapmamış yeni bir xəbər bizi daha dərindən sarsıtdı: Avqust ayının 15-də Ermənistanın Baş naziri Nikol Paşinyan Ermənistan-Azərbaycan sərhədinin Tavuş istiqamətində son döyüşlərdə iştirak edən bir qrup hərbçiyə ən yüksək dövlət mükafatlarının verilməsi barədə prezident Armen Sarkisyana müraciət təqdim etdi.





Paşinyan bu məlumatı öz Facebook səhifəsində yazdı:"Tavuşdakı döyüşlərdə 16 iştirakçını 1-ci dərəcəli Döyüş Xaç ordeni, 55 hərbçi 2-ci dərəcəli Döyüş Xaç ordeni, Kapitan Ruben Sanamyan isə Milli Qəhrəman adına layiq görüldü. Elə indicə, kapitan Sanamyanla görüşmək şərəfinə nail oldum ".

### *Kimdir bu R.Sanamyan?*

Kapitan Sanamyan 2012-ci ildə 2-ci dərəcəli "Döyüş Xaç" ı aldığı məlumdur. 25 sentyabr 2016-cı il tarixində Dilican şəhəri günü "Təşəkkür" mükafatını alıb. "Marşal Baqramyan" medalına da layiq görülüb.Bəli, kapitan Ruben Sanamyan Tovuz döyüşlərində başda general Polad Həşimov olmaqla yüksək rütbəli Azərbaycan zabitlərini bir atışla öldürdüyünə görə ona milli qəhrəman adı verilən erməni hərbiçisidir.

### *Qisas qiyamətə qalmadı!*

18 gündür Azərbaycan Ordusu bizə qürur və fəxarət hissini yaşadır, erməni təcavüzkarlarından, onların havadarlarından torpağımızı qarış-qarış azad edir. Ordumuzun həyata keçirdiyi əkshəmlə əməliyyatı 30 ilə yaxındır həsrətini çəkdiyimiz Qarabağın cənnət kənd və şəhərlərinə, strateji yüksəkliklərinə bayrağımızı sancdıqca həm şəhidlərimizin ruhu şad olur, həm də xalqımıza qarşı törədilən cinayətlərin cavabı verilir. Bütün bunlar xalq olaraq bizə təkrarolunmaz, sözlə ifadəsi mümkün olmayan hisslər yaşadır. Bu gün isə daha bir xəbərə sevinmişik: Azərbaycan Ordusunun generalı Polad Həşimovu qətlə yetirən erməni hərbçi Ruben Sanamyan məhv edilib. Bu barədə sosial şəbəkələrdə məlumat yayılıb və eyni zamanda önəmli Azərbaycan saytları bu xəbəri paylaşmaqdadır.

Zatən Cənab generalımız Polad Həşimovun qisası Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah Kəşfiyyat Müdirliyinin başçısı, general-mayor Arakel Martikyan və Ermənistan silahlı qüvvələrinin generalı Arşavir Qaramyan öldürüldüyündə alınıb, amma Ermənistanın bütün hərbçiləri bizim nəinki gerelamızın, hec adi əsgərimizin çölə atılan dırnağına dəyməz!

### *Ona görə də, qisasa davam!*

**Yeri gəlmişkən, polkovnik İlqar Mirzəyevinqisası isə müharibənin ikinci günü-28 sentyabrında alınıb. Ermənistan ordusu iki yüksək rütbəli zabitini itirib. Belə ki, Xüsusi Təyinatlı Briqadnın komandiri, polkovnik-leytenant Vardanyan Lernik Aregi (1978) və Ağdərə istiqamətində isə Ermənistan ordusunun polkovniki Nikolay Mikaeloviç Aykyan (1972) ordumuz tərəfindən məhv edildi. Bir sözlə qana qan, cana can! Yaşasın Azərbaycan Ordusu!**

**Əntiqə Rəşid**
**"Ədalət" qəzetinin**
**Qarabağ üzrə xüsusi müxbiri**

### *Olmayan atəşkəs bitsin, sürprizlər olacaq*

***Bu gün (dünən-red.) cəbhənin Ağdam, Tərtər, Naftalan və Goranboy istiqamətində olmuşam. Düşmən artilleriyası bu istiqamətlərdə yaşayış məntəqələrini vururdu. Talış və Murov istiqamətində olanda saniyəölçəni qoşurdum. Orda olduğum müddətdə cəmi bir dəfə 1 dəqiqəyə yaxın sakitlik oldu. Hərbçilərimizlə görüşüb, söhbət etmək imkanım oldu. Söhbət zamanı da məlum oldu ki, erməni tərəfi atəşkəsi hücum əmri kimi qəbul edib. Bir neçə istiqamətdən hücuma cəhd ediblər. Həm canlı qüvvə, həm də hərbi texnika itiriblər. Şimal istiqamətindən narahat olanlar çoxdur. Açığı ərazinin relyefi, düşmənin bunkerləri, istehkamları sürətlə irəliləməyə şərait yaratmır. Ancaq bildiyim bir şey var ki, dərinlik daha çox artıb. Nə yalan deyim, hərbçilərdə olan pozitivliyi mülkilərdən almamışam. Həm döyüşürlər, həm o şəraitdə möhkəmlənmə işləri aparırlar, bu çox ciddi əziyyət hesabına başa gəlir.***

***Cəbhənin cənub istiqamətində də ciddi işlər gedir.***

***Qısası müdafiə xətti cinahlardan tam dağıdılıb. Olmayan atəşkəs bitsin, sürprizlər olacaq. Sürpriz deyəndə Füzulini nəzərdə tutmuram. Mənim üçün önəmli olan kənd yox, dərinlikdir.***

*Səxavət Məmməd*

# "Rahat uyu, Məmməd Araz, Azərbaycan "Vətən" deyir!"



*Bu gün gərək*
*Hər anımız Vətən! - desin.*
*Qılıncımız, qalxanımız*
*Vətən! - desin.*
*Ölənlərin əvəzinə*
*Qalanımız - Vətən! - desin.*
*Zərrə qədər imanımız,*
*İmanımız - Vətən! - desin.*

*Xalq şairi Məmməd Araz*

**Düzünü deyim ki, Məmməd Araz haqqında yazmağı 1 ay öncə qərarlamışdım. Zamanında barəsində oxuduqlarımı bu 1 ay içində təkrarlayıb Məmməd Arazı daha yaxından oxuculara təqdim etməyi düşünürdüm. Bu şairin yaradıcılığına baş verən hadisələr zəminində nəzər salanda qürurlandım, kövrəldim, onun təbirincə desəm, hər gün "Vətən" dedim.**

Vətən sevgisi, Vətənpərvərlik Məmməd Arazın yaradıcılığının əsas qayəsini təşkil edir. Elə bundan doğur ki, poeziyası Azərbaycançılıq motivləri ilə zəngin olan şairin sevgisi də Vətənlə bağlıdır. ***"Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı"*** deyən şair əslində bu günlərin çağırışçısı, carçısıdır.

Millilik, müstəqillik, azadlıq düşüncələrini şeirlərində bənzərsiz şəkildə ifadə edən Məmməd Araz sözün həqiqi mənasında İstiqlal şairidir. Keçmişimizin, bu günümüzün, sabahımızın həqiqətləri Məmməd Araz qələminin sivri ucundan çıxan kəlimələrdə əks olunub:

*Qələm gəldi əlimə -*
*Araz gəlir dilimə!*
*...Araz deyəndə mən*
*Yalnız çay düşünmürəm!*
*Mənim tək baxsan ona*
*Deməzsən adi sudur.*
*O, bir gəlin hörüyü,*
*Bir uşaq yuxusudur.*
*O, Qıratın yalmanı,*
*Bozatın tərliyidir;*
*Nənəmin ipəkliyi,*
*Babamın sərtliyidir...*

Yaradıcılığının mövzu-mündəricisini təşkil edən Araz mövzusu elə şairin özünün də möhürünə, təxəllüsünə çevrilib: **"Məmməd Araz".**

Araza bir çay kimi deyil, bütöv Azərbaycanın simvolu kimi baxan Məmməd Araz onu tez-tez obrazlaşdırır, Arazın həsrətindən doğan təəssüratlarını millətin ayrılıq dərdi, həsrəti ilə bağlayır. Bu baxımdan onun poeziyası Vətənin tarixidir, xalqın taleyidir.

Azərbaycan əsgərlərini oğulları kimi qəbul edən Məmməd Araz onları qələbəyə səsləyir, onları ölməz bir varlıq kimi nəzərdən keçirir. Misralarında qələbə həddinin, qələbə səddinin məhz əsgər olduğunu söyləyən şair yazır:

*Son atəş də, son zərbə də səninkidir,*
*Oğul əsgər, əsgər oğul - mərd igiddir.*
*Mərd ölsə də mərdlik ölmür, hünər ölmür;*
*Hünər ölmür, mərdlik ölmür, əsgər ölmür.*
*Geri dönmə sən qələbə xəttindəsən,*
*Son qələbə həddindəsən, səddindəsən!*

"Vətən" və "Vətənpərvərlik" kimi müqəddəs anlayışları tez-tez xalqa aşılayan Məmməd Arazın hər misrası bir məna, hər bəndi isə bu mənadan doğan böyük bir təəssüratdır:

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*

Məmməd Arazın bədii düşüncəsində Azərbaycan bir dünyadır. Təbiəti, zəngin dəyərləri, mənəviyyatı əxlaqı ilə özünəməxsus bir dünya:

*Azərbaycan!... Qayalarda bitən bir çiçək...*
*Azərbaycan, çiçəklərin içində qaya...*
*Mənim könlüm bu torpağı vəsf eləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya.*

İlk sözünü Vətəndən başlayıb elə Vətəndə də bitirən şair Vətənə həsr etdiyi şeirlərində ona bağlı nümunəvi bir vətəndaş kimi çıxış edib, bununla da vətəndaşlığın himnlərini yaradıb.

Hər anımızla səsləşən o himnlər bu gün bizi qələbəyə səsləyir:

*Bu gün bizim*
*Hər anımız Vətən! - deyir.*
*Qılıncımız, qalxanımız*
*Vətən! - deyir.*
*Ölənlərin əvəzinə*
*Qalanımız - Vətən! - deyir.*
*Rahat uyu, Məmməd Araz,*
*Azərbaycan "Vətən" deyir!*

**Rövşən Tahir**

# Xəyallar və Reallıqlar

**Orxan Aras**



**Şair Homer məşhur eposunda həqiqi xəyallar ilə yalançı xəyalları ayırd edir. Ona görə tanrılardan ilhamlanan xəyallar həmişə gerçəkləşməyə bilər, tanrılar bəzən istəklərinə çatmaq üçün aldadıcı xəyallardan da istifadə edə bilərlər. Məsələn, Zeus, Ağamemnona müdrik məsləhətçisi Nestorun qiyafəsində hiyləgər xəyallar göndərdi ki, onu daha əvvəl müharibəyə göndərsin. Aesop eyni zamanda bir nağılda Apollonun Zeusdan gerçək xəyallar istədiyini yazır. Zeus ona istədiyi yuxu (peyğəmbərlik) verdikdə, Apollon ən böyük tanrı olduğunu düşünür və digər tanrılarla təkəbbür göstərməyə başlayır. Zeus bu təkəbbürə qarşı bir vasitə düşünür və gerçək görünən xəyallar yaradır. Homer yalanları və gerçək xəyalları aşağıdakı sətirlərdə nəql edir:**

*"Dedikləri boş xəyalların iki qapısı var*
*Biri fil sümüyündən, digəri buynuzdan ...*
*Fildişi qapıdan çıxanlar,*
*İnsanları yalan məlumatlar verməklə*
*aldadırlar."*




Ermənistan baş naziri Paşinyanı bir neçə gün Avropa mediasında izlədikdən sonra həmişə Zeusun yaratdığı saxta xəyalları və peyğəmbərlikləri xatırladım.

Britaniyanın məşhur BBC televiziya kanalının müxbiri Stephen Sackur, avqust ayında Ermənistanın baş naziri Nikol Paşinyanla bir reportaj keçirdi.

Paşinyan, televiziya aparıcısının verdiyi hər suala min illik tarixi xəyallardan bəhs edərək cavab verməyə çalışırdı. Bu münasibət Stephan Sackur'u bezdirdi və "İndi tarixi görüşlərinizi müzakirə edə bilmərik, gəlin mövcud həqiqətlərə qayıdaq" dedi.

***İngilis Setphan Sackur haradan bilsin ki, faktlar Paşinyan üçün heç bir əhəmiyyət daşımır?***

Alman Bild qəzetinə verdiyi açıqlamada Paşinyan işğala və müharibəyə eyni xəyallara əsaslanaraq haqq qazandırmağa çalışdı. Heç vaxt ortaya çıxan faktlara toxunmaq istəmədi. Türklər dayandırılmasa Vyana qapılarında dayanacaqlarını, Azərbaycanın Ermənistana qarşı soyqırımı etməyə çalışdığını və "min illər Artsah" kimi əsassız dəlillərlə Qərbin ictimai rəyinə təsir göstərməyə çalışdı.

Bu vəziyyət yalnız Ermənistanın baş naziri ilə məhdudlaşmır. Sülh tərəfdarı, Vardan Arutunyan kimi ermənilərin etiraf etdiyi kimi, illərdir davam edən xəyallar, tarixi yalnız siyasətçiləri deyil, təəssüf ki, bütün yeni nəsli zəhərlədi.

Evlərdə, məktəblərdə asılmış xəritələrdə Anadolunun yarısı, Kipr adası, Gürcüstan, bütün Azərbaycan və İran kimi ölkələr Ermənistanın sərhədləri daxilində göstərilir. İnsanlar hər dağ, hər daş və qədim




qalıqları haqqında ağlasığmaz əfsanələr uyduraraq zəhərlənirlər.

***Sosial mediada verilən mesajlara, məqalələrə və cavablara baxaraq hər bir erməninin, əsrlər əvvəlki nümunələri verməyə çalışıraq Ermənistanda yaşayan iki milyonluq xalqı qonşuları ilə döyüşməyə sövq edir.***

***Tarixə sitayiş elə inkişaf etmiş bir nöqtəyə çatmışdır ki, Ermənistanda demək olar ki, heç kim bu cür mifik məlumatlara etiraz edəbilməz, hər bir xalqın öz ölkəsində sülh və firavanlıq içində yaşaması lazım olduğunu söyləyə bilməz.***

Bu cür təbliğatdan təsirlənən alman dostlarımızdan biri tarixi erməni adlarını və yerlərini xatırladıqda mən ona belə cavab verdim:

"Bütün bu tarixi iddiaların kökünə gəldiyimiz zaman çox fərqli nəticələr ortaya çıxır.

Ancaq gəlin bu iddiaların doğru olduğunu düşünək. Yəni iddia etdiyiniz bu bölgələrin üçüncü və ya dördüncü əsrlərdə ermənilərə aid olduqlarını qəbul edek.

Onlarin iddia etdikləri kimi olsa da, bu gün orada yaşayan insanları kənarlaşdırıb ermənilərə qaytarmağın ağlabatan olduğunu nəcə düşünəbilirsiniz? Dediklərinizdə bir həqiqət varsa, bütün dünya yenidən dizayn edilməli deyilmi? O zaman keçmişdə bütün Asiyanı idarə edən türklər, ruslara "buradan gedin" deyəcəklərmi? Avropadan Amerikaya gedən avropalılar Amerikanı oranin yerlilərinə buraxacaqlarmı?"

Sözlərimin qarşısında bir müddət susan dostum, nəhayət, "bu qədər düşünə bilmədim" dedi və söhbəti sona çatdırdı.

***Ermənistan tarixi vəsvəsələrdən qurtulmadıqca və ölkəsində demokratik, dinc bir nizam qurulmadıqca, məktəblərindəki kin və nifrət dolu təhsillərini dayandırmadıqları müddətcə onlar qonşuları olan Azərbaycan, Gürcüstan və Türkiyə ilə sağlam bir əlaqə inkişaf etdirə bilməyəcəklərdir.***

Bu düşmənçiliyin ən böyük ziyanı da öz xalqlarına olacaqdır.

Qafqazdakı bu üç ölkənin barışıq içində yaşaması üçün Ermənistan bütün tarixi iddialardan imtina etməli, münaqişələrə son qoymalı, mehriban qonşuluq münasibətləri ilə bir-birlərinin iqtisadiyyatına töhfə verməlidir və uşaqlarına azad, zəngin və dinc bir ölkə qoymalıdırlar.

**Homerin min illər əvvəl dediyi kimi "Yalan məlumat vermək və gənc ağılları kinlə zəhərləməklə insanları aldatmaq" erməni xalqına heç bir şey gətirməyəcək və bu ağrılar gənc nəsillərə də miras qalacaq, onları uzun müharibələrin əsarətində saxlayacaqdır.**

# Azərbaycan XİN rəhbəri düşmənin terror cəhdini Sergey Lavrovla müzakirə etdi

**Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov və Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, C.Bayramov rusiyalı həmkarına regionda sonuncu gərginlik ilə bağlı məlumat verdi və qarşı tərəfin diqqətinə çatdırdı ki, 14 oktyabr tarixində gecə saat 1-də Ermənistanın silahlı qüvvələri azərbaycanlı mülki əhaliyə və mühüm əhəmiyyət kəsb edən infrastruktura hücum etmək məqsədilə Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərini raket atəşinə tutmaq üçün hazırlıq vəziyyətinə gətirilmişdi. O, vurğuladı ki, Azərbaycanın Silahlı Qüvvələri özünü müdafiə etmə hüququ çərçivəsində və öz mülki əhalisini qorumaq məqsədilə işğal altında olan Kəlbəcər rayonunun Azərbaycan-Ermənistan sərhəd ərazisində hərbi legitim hədəf kimi bu raket sistemlərini hazırlıq vəziyyətində məhv etdi və bununla növbəti insan faciəsinin qarşısını alaraq, çox sayda Azərbaycan mülki şəxslərinin həyatını xilas etdi. Nazir vəziyyətin gərginləşməsi ilə bağlı məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd etdi. Xarici İşlər naziri Sergey Lavrov mülki şəxslərin tələfatı ilə bağlı öz ciddi narahatlığını ifadə etdi. O, Moskva görüşü zamanı razılaşdırılmış humanitar atəşkəsə riayət edilməsinin vacibliyini vurğuladı.

# BELARUSDA SON VƏZİYYƏT

## Lukaşenko kompromisə gedir



**Vergilərlə bağlı keçirilən yığıncaqda Belarus prezidenti səlahiyətlərin bölüşdürülməsinə hazır olduğunu bəyan edib.**

Ötən istirahət günündə Minskdəki müvəqqəti saxlama kamerasında saxlnan müxalifət liderləri ilə 4 saat yarım davam edən görüşdə bu məsələnin Konstitusiyada aparılacaq reformalar siyahısına salınmasını müzakirə edib. Yığıncaq iştitrakçıları Lukaşenkonun "vergi sisteminin inkişafı ilə bağlı" məruzəsini dinləməyə hazır olduqları vaxta, prezidentin hakimiyyət səlahiyyətlərinin bölüşdürülməsində dövlət idarəetmə sistemində ediləcək dəyişikliklər barədə çıxışını dinləyiblər.

" Son vaxtlar səlahiyyətlərin bölüşdürülməsi ilə bağlı çoxlu müzakirələr aparılır. Əslində bu müzakirələrə haqq qazandırmaq olar. Təklif olunur ki, 71 səlahiyyət prezidendən alınaraq bütün hakimiyyət strukturlarına ötürülsün. Hökuməti və digər hakimiyyət strukdurlarını yükləməklə prezidentin səlshiyyətlərinin azaldılmasının vaxtı çatıb"- deyə Lukaşenko çıxışında bildirib. Belarus prezidenti çıxışnda məhz hansı səlahiyətlərinin digər hakimiyyət orqanlarına veriləcəyi barədə açıqlama verməyib. "Bu sonrakı müzakirələrinin mövzusudur"- deməklə çıxışını bitirib.

Belarus mətbuatı pezidentin müvəqqəti saxlama kamerasında müxalifət liderləri ilə görüşünün təfərrüatı barədə açıqlama verməyib. Bildirilib ki, bu danışıqların təfərrüatının konfidensial saxlanılması məsləhət olunub. Görüşdə prezidentliyə eks namizəd Viktor Babariko, onun oğlu və müxalifətin koordinasiya surasının prezidum üzvü Liliya Vlasova iştirak edib.

**Dialoq iştirakçılarının fikirincə dialoq nə qədəq açıq və gərgin keçsə də, əsas odur ki, baş tutub. "Gözləyin davamı daha maraqlı olacaq"- deyə Lukaşenkodan sitat gətiriblər.**

**Rüstəm HACIYEV**

# *Gizir Fərhad Məhərov:* "Hərbçi olan hər iki oğlumun kumiri Allahverdi Bağırov və Əliyar Əliyevdi"

***Bu gün ordumuz yeni tarix yazır: 30 ildir işğal edilmiş torpaqlarımızı düşməndən azad edir, xalqımızın qəlbini qürur hissiylə doldurur, gələcəyinə öz töhfəsini verir. Bu günki həmsöhbətim keçmiş döyüşçü, hərbi-feldşer, gizir Fərhad Məhərovla oldu:***



**-Doktor, yadınızda qalıbsa, ordumuzun I Qarabağ müharibəsindəki fəaliyyətindən qısaca danışardınız..**

- Həmin günləri heç unutmaq olarmı?Mən Ağdam rayon Baş Qərvənd kəndindən məcburi köçkünəm, bizim ailəmiz kimi minlərlə ailə, ümumlikdə isə bütün Azərbaycan xalqı 30 ilə yaxındır Qarabağ müharibəsinin ağrılarını, acılarını ürəyində, kürəyində daşıyır. Şəxsən mən ordumuza hər zaman güvəndim. 1989-cu ildən əliyalın, tək başına düşmən önünə çıxan Azərbaycan əsgəri qəhrəmanlıqla mübarizə apardı, torpağı uğrunda canından-qanından keçdi. O vaxt da əsgərlərimizdə böyük ruh yüksəkliyi və döyüş əzmi vardı. Təsəvvür edin ki, yeni yaranmış Azərbaycan Ordusu, dünyanın super gücü olan Rusiya dövlətinin ordusuyla (366 motoatıcı alay), eyni zamanda, bir çox Avropa ölkəsinin maddi və mənəvi dəstəyi ilə döyüşən Ermənistan Silahlı Qüvvələri və ermənilərə məxsus 20-yə yaxın dünyanın tanınmış terror dəstələri ilə döyüşürdü. Təbii ki, o vaxt ölkə daxilində olan siyasi çəkişmələrin, əks təbliğatın da savaşı uduzmağımızda böyük rolu oynadı. Ordu qalib olduğu, ordumuz rəşadətlə döyüşdüyü anda xarici qüvvələrin ermənilərə göstərdiyi dəstək səbəbindən torpaqlarımız işğal olundu.

**-Özünüz orduya nə vaxt gəldiniz?**

- Müharibə başlayanda könüllü kimi yerli batalyonlardan birində döyüşə atıldım. 1992-ci ildən isə Azərbaycan Milli Ordusunun tərkibində atəşkəs rejiminə qədər pulemyotçu olaraq döyüşün ən qaynar nöqtələrində vuruşdum. Dəfələrlə yaralandım, kontuziya aldım, amma yenidən döyüş meydanına qayıtdım. Atəşkəs rejimindən sonra tibbi təhsilimə əsasən orduda qalmaqda israrlıydım . Atəşkəs dövründə neşə dəfə savaş baş verdisə, orda oldum, ən qaynar yerlərdə ordunun yanında oldum. 1994-cü ildən 2017-ci ilə qədər əsgərlərimizin sağlamlığı keşiyində dayandım . Hazırda ehtyatda olan feldşerəm və peşəmi Ağdam Rayon Mərkəzi Xəstəxanasında davam etdirirəm. İndi də ən qaynar nöqtədəyəm.

**- Azərbaycanda bəziləri elə düşünürdü ki, işğal müddəti uzandıqca, o torpaqlar unudulur, gənclərin yaddaşından uzaqlaşır. Sizcə, bu doğru fikir idimi?**

- Atəşkəs dövründə müxtəlif illərdə azmüddətli müharibələr baş verdi: Avqust, fevral, aprel müharibələri, Tovuz hadisələri... Bunların hər birində rəşadət göstərən, ermənini geri oturmağa vadar edən gənclərimiz olub. Yadınızda olar, Aprel döyüşlərində düşmənə qan udduran xüsusi təyinatlılarımızın bir çoxu Qarabağ müharibəsi dövründə bəlkə də anadan da olmamışdı, amma Azərbaycan xalqının əzəli və əbədi düşməninə - onun nümayəndələrini qətl yetirən işgəncələr verən ermənilərə qarşı nifrət hissi ilə dolu idilər və qələbə əzmi ilə döyüşdülər. Ermənilərin başına 1 milyard (dramla) pul qoyduğu kəşfiyyatçı Pəncəli Teymurov heç qarabağlı deyildi, 1981-ci ildə Astarada anadan olub. Qarabağ müharibəsi başlayanda onun cəmi 8-9 yaşı olub. Amma baxın, onun qəhrəmanlıqlarından düşmən ordusunda da danışılırdı. Onun haqqında bir faktı deyim: Pəncəli Teymurov hələ uşaq ikən, 1992-ci ildə baş vermiş Xocalı soyqırımının kadrlarını izləyəndə hərbçi olacağına və düşməndən intiqam alacağına söz verir. O, illər sonra sözünü tutur. Xocalı faciəsi zamanı azərbaycanlıları öldürən erməni hərbçi general rütbəsi almağa gedərkən Pəncəli Teymurov onu izləyir və əlverişli məqamda məhv edir. Bu olay erməni ordusunu lərzəyə salır, böyük çaxnaşma yaradır. Sonra, 2015-ci ildə kəşfiyyat qrupu ilə Kəlbəcərə keçən Pəncəli 4 erməni zabitin və 20 əsgərin olduğu "Ural" markalı maşını partladaraq onların hamısını məhv edir. Daha bir nüansı sosial şəbəkələrdə izləmişdim: Pəncəli Teymurov öz toyunda düşməndən intiqam alıb şəhid olmağı və üçrəngli bayrağımıza bükülüb dəfn olunmağı arzulamışdı. Bu gün Azərbaycan Ordusunda Pəncəli Teymurov kimi yüzlərlə qəhrəman var. Bunu biz də, işğalçı düşmən də yaxşı bilir. İndi kim deyə bilər ki, Azərbaycan gənci Azərbaycan xalqının düşmənini unudar, qisası qiyamətə saxlayar? Bu sözü ancaq erməni dəyirmanına su tökənlər deyə bilər...

**-Bayaq söhbətimizdə söylədiniz ki, sizin evdən də əsgər var...**



- İki oğul övladım var Onlara hələ kiçik yaşlarında çiyin-çiyinə döyüşdüyüm silahdaşlarımın qəhrəmanlıqlarından o qədər danışırdım ki,.. Az yaşlı olmalarına baxmayaraq Ağdamın milli qəhrəmanlarının, eləcə də Baş Qərvənd kəndinin şəhidlərinin adlarını əzbərdən bilirdilər. Hətta orta məktəbdə oxuyarkən ictimaiyyətin tanımadığı şəhidlərimizi sinif yoldaşlarına tanıdır, tədbirlərdə adlarını çəkirdilər. Bir hərbçi olaraq övladlarımı hərbi vətənpərvərlik ruhunda böyütdüm. Hazırda böyük oğlum 26 yaşlı Sərhad Məhərov Azərbaycan Ordusunda leytenant olaraq ön cəbhədə gedən döyüşlərdədir. Kiçik oğlum Təbriz də ordu sıralarındadır və o, tam başqa bir istiqamətdədir. (Dəqiqliklə deməsəm daha uyğun olar). Hər iki oğlumun kumiri Allahverdi Bağırov və Əliyar Əliyevdi. Allah ordumuzu, gənc övladlarımızı, vətənpərvər gənclərimizi hifz eləsin! Bir hərbçi kimi, bir hərbçi atası kimi gəncliyimizə çox ümidliyəm.Əminəm ki, gənclərimiz düşmənləri torpağımızdan, Prezidentimiz demişkən, iti qovan kimi qovduqdan sonra da dağılmış kənd və şəhərlərimizin abadlaşdırılmasında xalqımıza hər zaman qürur və fəxarət duyğusu yaşadacaqlar.

**-Biz soruşmadığımız, siz söyləmədiyiniz hansı söz qaldı?**

- Azərbaycan xalqı heç bir zaman işğal edilən torpaqlarından əlini üzmədi, bu işğalla barışmadı.

Hazırda ömrünün ixtiyar çağını yaşayan ata-anam hər gün, yox ee, bir gündə 2-3 dəfə mənə zəng edirlər,Ağdamın işğaldan azad olub olmamasını soruşurlar. Mən də Azərbaycan Ordusunun əzmli qələbələrindən, azad etdiyi kənd və şəhərlərimizdən danışıram. İnanırsınız, o yaşda insanların uşaq kimi sevinməsi məni elə kövrəldir...

Bütün yaşlı nəsli qarabağlıların yatanda da yuxusunda evlərini, yurdlarını görməsini, oyananda isə yurdunun gözəlliklərini dillərindən düşürməməsi mənə o inamı vermişdi ki, bu xalq yenilməzdi, bu xalq qəhrəmandı, bu xalq ən böyük düşməni, super gücü öz iradəsi və əzmi ilə sındırmağa qadirdi. Azərbaycan Ordusuna qalibiyyəti, Azərbaycan Xalqına məğrurluğu Uca Yaradanımız yaranışdan verib. Allah bayraqlar içərisində bayrağımızı hər zaman uca eləsin! Sərgilədiyiniz yenilməz siyasi iradənizə görə, Sizi Allah qorusun, cənab Ali Baş Komandan!

**- Maraqlı müsahibəyə görə, sizə dərin təşəkkürümüzü bildirirk! Arzu edirəm, leytenant Sərhad Məhərov və əsgər Təbriz Məhərov qələbə xəbərini nənə və babasına şəxsən özləri xəbər versin! İnşallah!**

**Əntiqə Rəşid**
**"Ədalət" qəzetinin Qarabağ**
**bölgəsi üzrə xüsusi müxbiri**

# YÜK MAŞINLARI YOXLANILDI





**Hərəkətin təhlükəziliyinin təmin edilməsində və eləcə də yol hərəkəti qaydalarının qorunmasında yol polisinin üzərinə çox böyük məsuliyyət hissi düşür. Təbii ki, bu məsuliyyət hissini bütün dövrlərdə yol polisi əməkdaşları diqqət mərkəzində saxlayır və tapşırılan vəzifənin icrası üçün məqsədyönlü fəaliyyət göstərir. Bu gün sirr deyil ki, Yol Patrul Xidməti Alayının bütün tağımları həm karantin rejimində, həm də hərbi vəziyyətdə öz üzərinə düşən bu məsuliyyəti bir an da olsun yaddan çıxarmır.**

Bakı-Şamaxı-Yevlax avtomobil yolunda xidmət aparan Yol Patrul Xidməti Alayının 3-cü tağımın əməkdaşları da davamlı olaraq hərəkətin təhlükəsizliyinin təmin edilməsində və baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında mühüm rol oynayır. Onu da qeyd edək ki, bu avtomobil yolunda payız və qış aylarında xidmət etmək bir qədər çətin olur. Ən azından ona görə ki, yolların böyük bir hissəsi dağlıq əraziyə düşür, enişli-yoxuşlu olduğu üçün mürəkkəb hava şəraitində nəqliyyat vasitələrini idarə edərkən bir çox problemlər yaranır. Ona görə də tağım əməkdaşları bir qayda olaraq payız və qış mövsümündə baş verə biləcək qəzaların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görürlər.

Belə ki, hərəkətin təhlükəli olduğu sərt döngələrdə və havanın soyuq, şaxtalı günlərində həmin yerlərə tağım komandiri tərəfindən əlavə naryadlar göndərilir. Və həmin yol polisi əməkdaşları da hava şəraitinə uyğun fəaliyyət göstərir, təhlükə ilə bağlı avtomibilləri saxlatdıraraq sürücüləri maarifləndirir və onlara öz tövsiyələrini verirlər. Təbii ki, bu cür maarifləndirici tədbirlər mövcud problemləri aradan qaldırır, baş verə biləcək qəzaların yaranmasını zərərsizləşdirir.



Bu gün isə ölkədə hərbi vəziyyətlə əlaqədar olaraq 3-cü tağımın əməkdaşları gücləndirilmiş iş rejimində çalışırlar. Yəni onlar sutkanın 24 saatı bir qayda olaraq öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirirlər. Tağımın stasionar postunda, eləcə də digər təyin olunmuş yerlərdə yük maşınları ilə bağlı mütəmadi olaraq tədbirlər görülür. Çünki sirr deyil ki, hərbi vəziyyətdə olan ölkədə yük maşınında qeydi-qanuni yüklər də daşına bilər. Bu barədə tağım əməkdaşlarına konkret tapşırıqlar da verilib. Onlar da bu tapşırığa uyğun olaraq stasionar posta şübhə doğuran yük maşınlarını saxlatdırır, sürücüdən yük maşının yerini açmağı tələb edir və ora baxış keçirəndən sonra hər hansı qanunsuz bir fakt aşkarlanmırsa, sürücüyə nəqliyyat vasitəsini idarə etməyə razılıq verilir.

***Tağım əməkdaşı İlqar Məmmədli 90 OK 862 nömrəli yük maşınını 3-cü tağımın stasionar postunda saxlatdırır. Sürücüyə özünü təqdim edərək maşına baxış keçirməsini bildirir. Sürücü isə buna heç bir etiraz eləmir, sükan arxasından düşərək maşının arxa hissəsini açır və bundan sonra maşına baxış keçirilir. Yol polisi əməkdaşı İlqar Məmmədli maşının yük yerinə baxış keçirəndən sonra heç bir qanunsuz fakt aşkar edilmədiyinə görə sürücüyə hərəkət etmək üçün icazə verir.***

Eyni zamanda polis əməkdaşı İlqar Məmmədli 10 AE 974 nömrəli yük maşınının sürücüsünə də "Saxla!" əmri verir. Təbii ki, yük maşınının sürücüsü onun əmrinə tabe olur və maşını yolun kənarına verib saxlayır. O da sükan arxasından yerə düşərək maşının arxa hissəsini açıb yoxlama aparan polis əməkdaşına göstərir. Bu yük maşınında da baxış zamanı hər hansı qanunsuz fakt aşkar edilmir. Bununla yanaşı, tağımın əməkdaşlarından biri olan Məhərrəm Alıpşayev də hərəkətdə olan yük maşınının saxlanılmasına göstəriş verir. Aydındır ki, bu yük maşınının sürücüsü də göstərişə əməl edərək nəqliyyat vasitəsini saxlayır və baxış keçirmək üçün yol polisi əməkdaşlarına şərait yaradır. Onu da qeyd edək ki, tədbir zamanı həm yol polisləri, həm də sürücülər bir-birilə çox mədəni rəftar edirdilər. Adətən bəzi hallarda sürücülər saxlanılarkən yol polisinə etirazını bildirir və narazılıq edilər. Amma bu dəfə biz tam başqa bir mənzərənin şahidi olduq. Onun da şahidi olduq ki, saxlanılan əksər sürücülər karantin rejiminin və hərbi vəziyyətin qaydalarını başa düşür, yol polisinə hörmətlə yanaşırlar.





***Tağımın əməkdaşlarından Məhərrəm Alıpaşayev, İntiqam Talıbov, Elmir Mirzəyev, İlqar Məmmədli, Elvin Məmmədli, Seymur Fətullayev hərbi vəziyyətlə əlaqədar olaraq öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir, hərəkətin təhlükəsizliyi üçün əllərindən gələni əsirgəmirlər.***

3-cü tağımın komandiri Şahmar Süleymanov bildirir ki, əməkdaşlarımız gərgin iş rejimində çox məsuliyyətlə çalışırlar. Öncə ona səy edirik ki, ağır yol-nəqliyyat hadisələrinin qarşısını alaraq minimum həddə çatdıraq. Bunun üçün isə bütün qabaqlayıcı tədbirlərdən və vasitələrdən istifadə eləyirik. Hava şəraitinə uyğun olaraq lazımi addımlar atırıq. Sutkanın qaranlıq saatlarında piyadaların daha diqqətli olmasını onların nəzərinə çatdırırıq. Əməkdaşlarımızın apardığı profilaktik tədbirlər zamanı piyadalara bildirirlir ki, onlar yolu keçərkən təyin olunmuş yerlərdən və yerüstü keçidlərdən istifadə eləsinlər. Çünki bəzi hallarda bir çox piyadalar nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi təyin olunmamış yerdən keçməyə cəhd edir. Bu vaxtsa piyadavurma halları baş verir. Buna görə də bir daha piyadalara tövsiyə edirik ki, yolu keçərkən ehtiyatlı olsunlar.

**Hərəkətin təhlükəsizliyi təkcə yol polisindən asılı deyil. Orada bütün hərəkət iştirakçılarının üzərinə böyük məsuliyyət düşür. Başqa sözlə demiş olsaq, yol polisi öz vəzifəsini məsuliyyətlə yerinə yetirməli, sürücü sükan arxasında diqqətli olmalı, piyada isə yolu keçərkən ehtiyatı əldən verməməlidir.**

**Faiq QİSMƏTOĞLU**



*Nurəddin ƏDİLOĞLU*

# Barıt qoxusu gələn Vətən torpağı

## Erməni yalanı, riyakarlığı olan yerdə atəşkəs mümkündürmü?

**2020-ci ilin oktyabr ayının birinci ongünlüyü arxada qaldı. Moskvada Rusiyanın iştirakı ilə əldə edilən humanitar atəşkəsdən bir gün belə keçməmiş erməni faşistləri müharibə bölgəsindən uzaq Gəncə, Mingəçevir, Beyləqan, Tərtər, Daşkəsən, Goranboy, Bərdə və sair rayonlarımızın dinc sakinlərini, infrastruktur obyektlərini ağır artilleriyadan, qadağan olunmuş uzaqmənzilli raketlərlə atəşə tutaraq yenihərbi cinayət törədirlər.**

Erməni silahlı bölmələrininatəşkəs barədə razılaşmanı kobud şəkildə pozaraq törətdiyi qətliam beynəlxalq konvensiyaların tələblərinə tamamilə zidd olsa da, BMT kimi mötəbər təşkilat başda olmaqla dünya birliyi hələki susur. Dünənə kimi Azərbaycanın dövlət başcısınasülh və atəşi dayandırmaq barədə ardıcıl zəng edən dövlət rəhbərləri humanitar rejim zamanı Gəncə şəhərinin mərkəzində ermənilərin törətdiyi vandalizmə göz yumurlar. Bütün dünyada, eləcə də MDB məkanına daxil olan dövlətlərin rəhbərləri Ermənistanın Azərbaycan xalqına qarşı son 30 ildə hansı mövqe tutduğunu yaxşı bilirlər. Lakin nə onlar, nə də beynəlxalq ictimaiyyət Ermənistanatəzyiq göstərirlər. Bu, çoxlu sual doğurur. Görəsən 30 ildən çox davam edən münaqişə boyu baş verənmüharibədəvə ya sülh danışıqlarında qazanan və ya itirən hansı tərəflərdir?

### *Axı müharibə yalnız döyüş meydanında getmir*

***Qədim Yunanstanınməşhur natiqi Demosfen müharibələri ədalətli və ədalətsiz olmaqla iki yerə ayırırdı. Demosfenə görə, "ədalətli müharibələr doğma vətəni yad tapdağından qorumağa xidmət edir, ədalətsiz müharibələr isə qarət etmək, gəlir əldə etmək məqsədilə aparılır."***

2016-cı ilin Aprel döyüşlərində, bu ilin iyulunda Tovuz istiqamətində və sentyabrın 27-də düşmən təxribatının qarşısını əks-həmlə ilə alan Azərbaycan Ordusu döyüş meydanında birmənalı şəkildə üstünlük əldə edib. ÇünkiAzərbaycanın Silahlı Qüvvələrininişğal olunmuş torpaqlarımız uğrunda ədalətli müharibə apardığı göz qabağındadır. Lakin Ermənistan həmişə məğlubiyyətin acısını dadanda Azərbaycana qarşı apardığı ədalətsiz müharibənin forma və metodlarını ağlagəlməz dərəcədə dəyişir.

Dünya hələ elə bir müharibə tanımır ki, işğalçı ordu qarşı tərəfin böyükdən-kiçiyədək son nəfərinə kimi hamısını məhv etmək niyyətini nümayiş etdirsin. Yaşayış yerlərini, mədəni-tarixi abidələrini, qəbiristanlıqlarını, hətta təbiətini xarabazara çevirsin. 1992-ci ilin fevralında Xocalıda, 2020-ci ilin oktyabrında Gəncə şəhərində dinc əhaliyə qarşı törətdiyi hərbi cinayət faktları erməni faşizmininalman faşizmindən daha qorxunc olduğunu göstərir.Dünya Xocalı harayını eşitmədiyi kimi, Gəncə qətliamına ciddi reaksiya vermir. Gəncə şəhərinin mərkəzinə atılan raket Ermənistanın hərbi-siyası rəhbərliyinin düşünülmüş surətdə törətdiyi cinayət və soyqırımdır.

### *Cənubi Qafqazda sülh xəyalı gerçək ola bilərmi?*

***Daşnak törəmələrinin qanlı əməlləri qəddarlıq dərəcəsinə görə bənzərsiz olsa da, Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad olunması barədə status-kvonun uzun müddət davam etdirilməsinin birbaşa xeyrini görən ölkələr də var. Elə götürək ATƏT-in Minskqrupunun həmsədrliyində təmsil olunan üç ölkəni. Bunlardan biri - hərbi-müdafiə sahəsində Ermənistanla əməkdaşlıq edən Rusiyadır.***

Görəsən belə bir ölkə Cənubi Qafqazda sülhün bərqərar olmasını gerçəkdənmi istəyir? Axı 115 il əvvəl də Çar Rusiyası Türkiyədən, İrandan və digər ölkələrdən Qafqaza köçürdüyü erməniləri silahlandırıb azərbaycanlı-müsəlman əhaliyə qarşı müharibəyə qaldırdı.

Üstəlik bu gün biz Rusiyada mövcud kütləvi informasiya vasitələrinin -xüsusilə telekanalların Azərbaycana qarşı əks - təbliğatının şahidi oluruq. Eləcə də Minsk qrupunun həmsədrliyində təmsil olunan ABŞ-da və Fransadabu ölkələrin dövlət qurumlarınaəhəmiyyətli təsirə malik olan erməni lobbisi mövcuddur. Minsk qrupunun strukturu və formatının dəyişdirilməsi həlli çoxdan çatmış, fəqət biləərəkdən yubadılan ciddi məsələdir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Biz, şəxsən mən Minsk qrupunun belə tərkibdə olmasına görə cavabdeh deyilik. Sözsüz ki, əgər biz sülhə şərait yarada biləcək hər hansı kontakt qrupunun tərkibi ilə bağlı bu gün qərar versəydik, əlbəttə, tərkib tamamilə fərqli olardı." Bax, belə olan təqdirdə niyə də Azərbaycana dost olan Türkiyənin Cənubi Qafqazda maraqları, mövqeyi və sülhə verə biləcəyi töhfələr nəzərə alınmasın?!Axı Qarabağ təkcə Azərbaycanın deyil, eyni zamanda Türkiyənin də qanayan yarasıdır...

### *Paşinyanı əsla döyüş meydanında qalan erməni əsgərlərinin cəsədləri maraqlandırmır*

***İnsan özü də dünya içində kiçik bir dünyadır. O -övladdır, ərdir, qardaşdır, oğuldur. Hümanitar atəşkəs dövrü başı "dabanını yaladıqları" himayədarları tərəfindən sığallanan Ermənistan hakimiyyətini döyüş meydanında qalan nə erməni əsgərlərinincəsədləri, nə də onların valideynləri maraqlandırır. Bu acınacaqlı faktın özü də erməni faşizminin hətta öz xalqının taleyinə laqeydliyinin aşkar göstəricisidir.***

Dəfələrlə Kremlə, Parisə zənglər edən erməni başnaziristədiyinə "nail" olandan sonra qondarma "Dağlıq Qarabağ Respublikası"nın danışıqlarda tərəf kimi təmsil olunmasına yönələn cəhdlərini davam etdirməsi həm siyasətçi adına, həm erməni xalqının adına, həm də insan adına böyük ləkədir. Hələ ötən il Ermənistan müdafiə nazirinin müavini David Tonoyan Azərbaycanla sülh qarşılığında "yeni ərazilər üçün yeni müharibələr" şüarı, Paşinyanın "Qarabağ Ermənistandır" populist bəyanatı və yeddi şərti, qondarma "DQR" rəbərliyinin Şuşada "andiçmə mərasimi" keçirməsi, nəhayət, Azərbaycana qarşı hərbi təxribatlar münaqişəninyenidən alovlanmasına səbəb oldu. Milli Ordumuzun qarşısında aciz qalan erməni faşistləri məkrli siyasət apararaq üçüncü tərəfi müharibəyə cəlb etməyə səy edir ki, həmin tərəf onun maraqlarınımüdafiə etsin.

Əgər doğrudan da ermənilərə sülh lazım idisə, onda niyə Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin döyüş bölgəsinə gələn maşınlarını atəşə tuturdular? Xatırladaq ki, ötən əsrin əvvəllərində də ermənilər məğlubiyyət ərəfəsində belə hiylələrə əl atıblar. M. S. Ordubadi "Qanlı illər" əsərində yazır ki, daşnak erməniləri başladıqları müharibədə məğlub olduqlarını görüb avqustun 19-da erməni arximandriti və qubernator Baranovski məscidin həyətinə gəldilər. Arximandrit müsəlmanlara yalvarmağa başladı: "Amandı müsəlmanlar, Şuşada ermənilər müqəssir olsalar da, daha erməni qalmadı. İndi bir ovuc əlsiz - ayaqsız erməni qalıbdır, onlara rəhm ediniz!" deyib, ağlaya-ağlaya sülh təklif etdi. Müsəlmanlar sülh sözünü eşidən kimi güllə atmağı dayandırıb sakit oldular. Ermənilər isə evə qayıdan qubernatoru atəşə tutdular."

Bu gün Gəncədə və başqa şəhərlərimizdə dinc əhalini atəşə tutan erməni terrorçuları əcdadlarının yolunu davam etdirirlər. Çox təəssüf ki, bir neçə ölkə istisna olmaqla, dünya mətbuatıAzərbaycanda baş verən hadisələri ermənipərəst mövqedən işıqlandırır... Elədünən Parisdə ermənilərin Gəncə şəhərində qətlə yetirilən uşaqların, günahsız insanların faciəsini bayram etməsi də onların faşist xislətinin bariz nümunəsi idi. Onu da qeyd edək ki,humanitar atəşkəsdən sonra Ermənistanın növbəti hərbi təxribatları və Gəncə şəhərində dinc sakinlərə qarşı qətliamı həm də bölgədə Rusiya diplomatiyasının nüfuzuna sarsıdıcı zərbədir.

### *Azərbaycan xalqı ordumuzun düşmən üzərində qələbəsinə inanır*

Bu gün Qarabağın azadlığı hər bir sıravi Azərbaycan vətəndaşının qeyrət borcudur.Şir ürəkli oğullarımız Vətən savaşı apardığı dövrdə biz - arxa cəbhədəolan insanlar həm də düşmənlə informasiya savaşında ölkəmizin haqq işini dünyaya çatdırmaq uğrunda çalışmalıyıq . Bizöz həmrəyliyimizlə ruhu qələbəyə köklənən igid əsgər və zabitlərimizə dəstək olmalıyıq. Qələbə bizim olacaq!

**Bu gün barıt qoxusu gələn Vətən torpaqlarımz sabah gül-çiçəyin ətrinə bələnəcək!**

# VƏTƏN MƏNƏ OĞUL DESƏ...

## *Müdafiə Nazirliyindən Ermənistana xəbərdarlıq: "Məhv ediləcək"*



**Ermənistan müdafiə nazirliyi etiraf etdi ki, atəş zərbəsi ilə sıradan çıxarılan əməliyyat-taktiki raket kompleksləri (ƏTRK) Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda, mülki obyekt və infrastrukturun olmadığı ərazidə tam döyüş növbəsində və tətbiqə hazır vəziyyətdə olub.**

Müdafiə nazirliyindən Adalet.az-a verilən məlumata görə, həmin ƏTRK-lar Azərbaycan ərazisindəki mülki obyektləri və infrastrukturu hədəfə almışdı. Ermənistan müdafiə nazirliyinin guya Ermənistan ərazisindən Azərbaycanın yaşayış məntəqələrinə atəş açılmaması barədə bəyanatları isə açıq-aşkar yalandır. Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrimizin məhz Ermənistan ərazisindən atəşə tutulması danılmaz faktdır. Azərbaycanın Ermənistan ərazisində hər hansı hərbi hədəf və maraqları yoxdur. Əksinə, Ermənistan öz ərazisindən Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqla qəsdən münaqişənin coğrafiyasını genişləndirmək məqsədini güdür. Bildiririk ki, mülki əhalimiz və yaşayış məntəqələrimizin təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəflərin zərərsizləşdirilməsi hüququnu Azərbaycan bundan sonra da özündə saxlayır.

## *Vaqif Dərgahlı: Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə əməl edir*

**Azərbaycan Ordusunun bölmələri heç bir atəş açmır və hücum həyata keçirmir.**

Bunu polkovnik Vaqif Dərgahlı deyib. O bildirib: "Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə əməl edir".

## *Müdafiə Nazirliyinin adına saxta "Telegram" və "İnstagram" hesabı açılıb*

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi adına saxta teleqram kanalı və instaqram hesabı açılıb.**

Vətəndaşları, sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini həmin saxta kanala (https://t.me/azerbaycan_mudafie_nazirliyi) və hesaba (https://www.instagram.com/mudafie.nazirliyi) istinad etməməyə çağırırıq.

Bildiririk ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi teleqram kanalı və instaqram hesabı bu linklərdədir:

**https://t.me/Azerbaijan_MOD**

**https://www.instagram.com/azerbaijan_mod**

## *Azərbaycanın mülki əhalisini hədəfə almış legitim hərbi hədəflər zərərsizləşdirilib*

**Oktyabrın 14-də saat 01:00 radələrində Ermənistan Respublikası tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ilə yaxın sərhəd zonasında bir-neçə əməliyyat-taktiki ballistik raket kompleksinin start mövqeyində yerləşdirilməsi müşahidə olunub.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, bu ərazidəki raket kompleksləri Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərindəki dinc əhali və infrastruktura doğru hədəflənmişdir. Oktyabrın 11-də Ermənistan tərəfindən Gəncə şəhərində törədilmiş hərbi cinayətə bənzər növbəti hadisənin təkrarlanmaması və raket hücumunun qarşısının alınması məqsədlilə Azərbaycan Ordusu tərəfindən qabaqlayıcı tədbirlər görülüb. Nəticədə atəş üçün hazırlıq vəziyyətinə gətirilən əməliyyat-taktiki raket kompleksləri legitim hərbi hədəf kimi tərəfimizdən zərərsizləşdirilib.

Bildiririk ki, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rejiminin üzərinə düşür.

## *Düşmənin məhv edilən hərbi texnikasının siyahısı*

**Oktyabrın 13-dən 14-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalıb.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

## *Ermənistanın ballistik raket kompleksi dəqiq zərbə ilə sıradan çıxarılıb*

**Oktyabrın 14-ü saat 08:36 radələrində Ermənistan Respublikasının Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonuna yaxın sərhədyanı ərazilərində Ermənistan silahlı qüvvələri növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi müşahidə edilmişdir.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, mülki insanlar arasında tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə operativ-taktiki raketlər Gəncə, Mingəçevir və digər şəhərlərə doğru hədəflənmişdi.

Mülki insanların təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəf kimi start vəziyyətində olan raketlər qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarılmışdır.

Bundan əvvəl saat 01:00 radələrində həmin istiqamət üzrə start vəziyyətinə gətirilmiş əməliyyat-taktiki raket kompleksi də dəqiq zərbə ilə məhv edilmişdi.

Raketlərin atəş vəziyyətinə gətirildiyi məntəqələrdə hər hansı mülki infrastruktur və obyektlər olmamışdır.

## *Müdafiə Nazirliyi: Su-25 təyyarəmiz vurulmayıb*

**Ermənistan müdafiə nazirliyi guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus Su-25 döyüş təyyarəsinin vurulması barədə yalan xəbər yayıb.**

Bu barədə Adalet.az-a Müdafiə nazirliyindən bildirilib.

Məlumatda qeyd edilir: "Bir daha rəsmi olaraq bildiririk ki, Azərbaycan HHQ-nin döyüş aviasiya vasitələri tətbiq edilmir və heç bir Su-25 döyüş təyyarəsi havaya qaldırılmayıb".

# QARABAĞ MÜHARİBƏSİ VƏ PREZİDENT İLHAM ƏLİYEV HAQQINDA NOSTRADAMUSUN GÖRÜCÜLÜYÜ




*Qəzənfər Paşayev,*
*Əməkdar elm xadimi, professor*


**Uzun illər üzərində işlədiyim "Nostradamusun möcüzəli aləmi" (Bakı, "Təhsil", 2007, 176 səh.) kitabımda yer alan, günümüz üçün böyük əhəmiyyət kəsb edən katrenləri oxuculara təqdim edirəm.**

### MÜNAQİŞƏ BİZİM XEYRİMİZƏ HƏLL OLUNACAQ

***Saçları qısa qırxılmışları (yumrubaşları) silahdan məhrum edəcəklər.***
***Bu, münaqişənin müddətini xeyli uzadacaq. İçki Atası (İçki düşkünü) ildırım sürətli albanlara qarşı kələk işlədəcək.***
***Özününkülərdən ayrı düşənlər məhv olacaq.***

Əcnəbi tədqiqatçılar "Albaniya" deyəndə müasir Azərbaycan və azərbaycanlıların nəzərdə tutulduğunu etiraf edirlər. Nostradamusşünas Bardo Kidoqo yazır: "Albaniya deyəndə nədənsə insanlar Balkanları göz önünə gətirirlər. Bu təsəvvür düz deyildir. Əslində, qədim tarix də və Nostradamus da buna işarə edir ki, (mütləq bax: 5 k91), Albaniya Qafqaz və İran arasında indi Azərbaycan kimi tanınan ərazidir".

***Tədqiqatçı Con Houq və başqaları da eyni fikirdədirlər. Con Houq yazır: "Qədim Albaniya Zaqafqaziya regionudur". Katren XX əsrin 90-cı illərində baş verən Ermənistan-Azərbaycan münaqişəsindən bəhs edir. 1993-cü ilin aprel-iyun aylarında erməni ordu hissələri özünün həlledici qələbəsini əldə edərək Dağlıq Qarabağı Azərbaycandan ayırdı. 90-cı illərin ortalarında Azərbaycan-Ermənistan münaqişəsi səngidi.***

Yeri gəlmişkən qeyd edək ki, Pompeyin Qafqaza yürüşünün iştirakçısı feofan Mitilinskidən üzü bu yana Ptolomey, Strabon, Plutarx başda olmaqla bütün səyyahlar və tədqiqatçılar Qafqaz Albaniyası deyəndə indiki Azərbaycan ərazisini nəzərdə tutmuş və albanları azərbaycanlıların əcdadları olduqlarını göstərmişlər. Qarabağ münaqişəsi hamıya tanışdır. Məlumdur ki, münaqişə ərəfəsində ruslar azərbaycanlıların əlindən ov tüfəngini də alırdılar. Lazımi hərbi sursat və müasir silahların olmaması ucbatından, katrendə göstərildiyi kimi, münaqişəyə son qoyulmadı. Lakin sonralar başqa ölkələrdən silah əldə edən Azərbaycan ordusu ildırım sürəti ilə Füzuli-Cəbrayıl istiqamətində hücuma keçib çox yerləri azad edəndə, ermənilər vahimə içində qaçmağa başladılar. Rusiyanın prezidenti Boris Yeltsin (İçki düşkünü) Azərbaycan rəhbərliyinə müraciət etdi və məsələni qan tökmədən həll etməyə söz verdi. Sözarası Rusiyanın Ermənistanla hərbi sazişinin olduğunu da yada saldı. Atəşkəs edilsə də, münaqişə həll olunmadı.Katrenin 4-cü sətrində söhbət Qarabağda tutularaq Ermənistana aparılan azərbaycanlılardan gedir. Katrenin 2-ci sətrindən göründüyü kimi, münaqişə bizim xeyrimizə həll olunacaq. (Katren 54. "Nostradamusun möcüzəli aləmi", s.18-19)

### 5 k91

***Mars Şir bürcündə, Saturn isə Dolça bürcündə olanda Yüngül silahlı Alban süvari dəstəsini görəndə təəccüblənəcəklər.***

***Hər şeydən əvvəl, onu deyək ki, Mars Şir bürcündə, Saturn isə Dolça bürcündə 1993-cü ilin aprelin 27-dən iyunun 23-nə qədər olub. 4-cü sətirdə qədim romalıların "Albanois" adlandırdıqları Azrbaycanla Ermənistan arasında 1993-cü il aprel-iyun aylarında baş verən müharibədən bəhs edilir. Nostradamus azərbaycanlıların yüngül silahla silahlanacaqlarını da əsrlərlə öncə görüb.***

Yeri gəlmişkən, tədqiqatçı Bardo Kidoqo bu katrendə Azərbaycanla bağlı maraqlı fikir irəli sürüb: "Albaniya deyəndə nədənsə insanlar Balkanları göz önünə gətirirlər. Bu təsəvvür düz deyildir. Əslində, qədim tarix də və Nostradamus da buna işarə edir ki, (mütləq bax: 5 k91), Albaniya Qafqaz və İran arasında indi Azərbaycan kimi tanınan ərazidir".

Nostradamusşünas Con Houq da məsələyə öz münasibətini bildirir: "Qədim Albaniya Zaqafqaziya regionudur". Katren XX əsrin 90-cı illərində baş verən Ermənistan-Azərbaycan münaqişəsindən bəhs edir. 1993-cü ilin aprel-iyun aylarında erməni ordu hissələri özünün həlledici qələbəsini əldə edərək Dağlıq Qarabağı Azərbaycandan ayırdı. 90-cı illərin ortalarında Azərbaycan-Ermənistan münaqişəsi səngidi. (Nostradamusun möcüzəli aləmi, s.410).

### 5 k6

***Kahin əlini krala toxunduraraq, gəlib İtaliyada sülh naminə ibadət edəcək.***




***Bu kraldan dünyaya sülhsevər hökmdar gələcək. Hökmranlıq əsası (skipetr) sol ələ keçəcək.***

Tədqiqatçılar Nostradamusun bu katrenini açmaqda çətinliklə üzləşiblər. Doğru qənaətə gəliblər ki, böyük görücünün söhbət açdığı hadisələr gələcəkdə baş verəcəkdir. Bizə qalırsa, bu katren Roma Papası II İohann Pavelin Azərbaycana səfəri (22.05-23.05 2002), Prezident Heydər Əliyev və oğlu İlham Əliyevlə bağlıdır.

**Biz bu qənaətə ciddi tədqiqat apararaq gəlmişik. Məsələ burasındadır ki, Nostradamusun dövründən XX, əsrin 2-ci yarısına qədər heç bir Roma Papası İtaliya sərhədlərindən kənara çıxmamışdır. Nostradamusun katrendə söhbət açdıqları Papa II Pavelin vaxtında baş verib. Azərbaycan və Mərakeşdən başqa, dövlətin başçısı sağ ikən Papanın ziyarət etdiyi 130-a qədər ölkənin heç birində atadan sonra hakimiyyətə oğul gəlməyib.**

Doğrudur, İordaniyada kral Hüseyndən və Suriyada Hafiz Əsəddən sonra (ölüm tarixi: 10 iyun 2000-ci il) hakimiyyətə oğlanları Abdulla və Bəşər Əsəd gəliblər.

Lakin Roma Papası Suriyaya 2001-ci ilin may ayında ziyarətə gedib. Yeri gəlmişkən, Papa İohann II Pavelin İordaniyaya səfəri onunla bağlı Web saytda yer almış almadığına görə, 27-30 avqust 2006-cı ildə İordaniyaya gedərkən öyrəndik ki, Papa II Pavelin İordaniyaya səfəri 2000-ci ilin mart ayında olub. Kral Hüseyn isə 1999-cu ilin fevral ayının 7-də vəfat edib. Qənaətimizin doğruluğuna əmin olduq.

Onu da deyək ki, Roma Papasının bir xristian ölkəsinə səfəri böyük hadisə kimi Nostradamusun diqqətini cəlb etməyə bilərdi. Lakin qədim zamanlardan ərazisində yəhudilərin əmin-amanlıqla, toplum halda yaşadığı, dünyaya neçə-neçə görkəmli yəhudi musiqiçisi, alim, həkim və s. töhfə etmiş Azərbaycan milliyyətcə yəhudi olan görücünün diqqətini çəkməyə bilməzdi. Burada onu da demək yerinə düşər ki, siyasi durum ucbatından nə Suriya, nə İordaniya, nə də Mərakeşdə yəhudi yaşamır.

***Roma Papası II Pavelin müsəlman ölkəsi Azərbaycana gəlişi, Azərbaycanda katolik kilsəsinin tikilməsi üçün torpaq sahəsinin ayrılması da gənclikdən katolik dinini qəbul etmiş Nostradamusun nəzərindən yayına bilməzdi. Azərbaycanda yüksək səviyyədə qarşılanan Roma Papasının ölkəmizdən çox məmnun getməsi və İtaliyaya qayıdandan sonra göndərdiyi razılıq teleqramı və məktubu çox mətləblərdən söz açır. 2-ci sətirdən göründüyü kimi, İtaliyaya qayıtdıqdan sonra o, Azərbaycanda sülh, əmin-amanlıq naminə ibadət edib. Roma Papasının Azərbaycana ziyarətindən sonra Vatikanın nümayəndə heyətlərinin tez-tez ölkəmizə gəlməsi, dövlətimizin başçısı İlham Əliyevin II Pavelin dəfn mərasimində iştirak etməsi təməli Heydər Əliyev tərəfindən qoyulan xoşməramlı əlaqələrə xidmət edir. Nostradamusun katrendə işlətdiyi "kral" sözü "dövlət başçısı" mənasına gəlir. 4-cü sətirdən də göründüyü kimi, İlham Əliyev hakimiyyətə gəldi və xalqın mənafeyində uyğun sülhsevər siyasət yeritməyə başladı.***

O ki, qaldı Mərakeşə, demək lazımdır ki, Papa II Pavel 1985-ci ilin avqust ayında Mərakeşdə 50 minlik izdiham qarşısında çıxış edib. 1999-cu ilin iyul ayında kral II Həsən öləndən sonra onun yerinə oğlu Məhəmməd keçib. Lakin Mərakeşin Vatikanla heç bir əlaqəsi olmadığına, ölkədə yəhudilərin yaşamadığına görə bu katreni Məhəmmədlə əlaqələndirmək doğru olmazdı. (Nostradamusun möcüzəli aləmi, s.362-364).

### 4 k87

***Çoxlu dil bilən kral oğlu, krallıqda öz sələfindən fərqlənəcək.***
***Onun gözəl atası oğlunun böyüklüyünü başa düşəcək.***
***Əsas rəqibini kənarlaşdıracaq.***

Tədqiqatçılar bu katrenin fransız kralı III Henridən bəhs etdiyini qeyd edirlər. Göstərirlər ki, III Henri sələfi olan qardaşı IX Karldan fərqlənirdi. O, bir neçə əcnəbi dildə danışır, ölkəni guya daha yaxşı idarə edirdi. Katrendən göründüyü kimi, söhbət ata və oğuldan gedir. Odur ki, katreni qardaşı Karldan sonra hakimiyyətə gələn III Henriyə aid etmək doğru deyildir.

Biseksual olan bu adama hamı nifrət edirdi. Çox nahaq qanlar tökən III Henrini axırda qanına qəltan edərək xəncərlə öldürmüşdülər.

**Bizə qalırsa, bu katrendə söhbət Azərbaycanın sabiq Prezidenti Heydər Əliyev və hazırkı Prezident İlham Əliyevdən gedir. Katrenin bütün sətirlərində bəyan olunanlar İlham Əliyevin həyatı və fəaliyyəti ilə birmənalı şəkildə səsləşir. İlham Əliyev həqiqətən də öz sələfindən fərqlənir. O, atasının əsasını qoyduğu böyük işləri ağıl və təmkinlə həyata keçirir. Möhtəşəm Bakı-Tbilisi-Ceyhan neft kəməri (artıq Qazaxıstan da bu kəmərə qoşulmaq barədə müqavilə imzalayıb), planlaşdırılan və tezliklə reallaşması gözlənilən qaz kəməri (Türkmənistan da bu müqaviləyə qoşulacaq), Azərbaycanı və hətta Orta Asiya dövlətlərini Avropa ilə birləşdirəcək Dəmiryol xətti, ölkə daxilində görülən vüsətli işlər Nostradamusun diqqətindən qaça bilməzdi. (Nostradamusun möcüzəli aləmi, s.352)**

## *ABŞ və Rusiya arasında nüvə sazişi dalana dirəndi*



**Strateji silahların azaldılmasını nəzərdə tutan yeni "Start" müqaviləsinin uzadılması ilə bağlı ABŞ və Rusiya arasında mübahisələr davam edir.**

**ABŞ müqavilənin uzadılması təklifinin ruslar tərəfindən qəbul edildiyini açıqlasa da, Moskva bu iddianı rədd edib.**

**Razılaşma iki ölkənin nüvə silahlarının tədricən azaldılmasını nəzərdə tuturdu. Moskvanın silah sayını azaltmaq əvəzinə 1500-dən 2500-ə qaldırdığı bildirilir. Bundan əlavə, ABŞ Rusiyadan müqavilədəki öhdəliklərinə əməl etməsini və Çinin müqaviləyə daxil edilməsini tələb edir.**

**Razılaşma uzadılmasa, nüvə silahlarının sayının əhəmiyyətli dərəcədə artacağı xəbərdarlığı edilir.**

**Qeyd edək ki, Soyuq müharibədən qalan nüvə silahlarının azaldılması ilə bağlı mübahisələr bu gün də davam edir.**

**Vaşinqton və Moskva arasında "Strateji Silahların Azaldılması" sazişi Soyuq müharibənin sonunda, 1991-ci ildə bağlanıb.**

**MEHRİBAN**

# Turqut Xəlilbəyli – Vətən müharibəsinin ilk şəhid həkimi

**Xəlilbəyli Turqut Nadir oğlu 1993-cü ilin iyul ayının 4-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yəngicə kəndində dünyaya göz açmışdı. Hələ uşaq vaxtlarından Turqut Vətənə, torpağa olan sevgisiylə öz həmyaşıdlarından xeyli seçilirdi. İllər ötür, Turqut yeniyetməlik, gənclik çağlarına qədəm qoyur. Özü ilə birgə Turqutun Vətənə, müqəddəs bayrağımıza olan sevgisi də böyüyür. "Dədə Qorqud" Türk liseyini bitirdikdən sonra bir tərəfdən insan həyatına verdiyi yüksək dəyər, digər tərəfdən də hərb sənətinə olan böyük marağı gənc Turqutun peşə seçiminə öz təsirini göstərir. Tibb Universitetinə daxil olan Turqut Xəlilbəyli burada hərbi həkim ixtisasına yiyələnir.**




Qohumları, doğmaları deyirlər ki, Turqutun bu sənəti seçməyində onun sonsuz rəğbət bəslədiyi və pərəstiş etdiyi yaxın qohumu, ehtiyyatda olan Tibb xidməti polkovnik-leytenantı Çingiz Məmmədovun da böyük təsiri olub. Belə ki, Turqut həyatda özünün idealı bildiyi bu şəxsdən daima məsləhətlər alar, həyat əhəmiyyətli seçimlər edərkən onun rəyini mütləq öyrənərdi.

Ali məktəbi bitirdikdən sonra Tibb xidməti leytenantı Turqut Xəlilbəyli Beyləqan korpusunun hərbi hissələrindən birində xidmətə başlayır. Bu ilin sentyabr ayının 27-dən, Vətən müharibəsi başlanan ilk gündən isə Turqut Füzuli rayonu istiqamətində gedən döyüşlərə qatılır. Burada da Turqut Xəlilbəyli öz ideallarına sadiq qalır. Belə ki, o, hərbi əməliyyatlarda bilavasitə iştirakına baxmayaraq, can almır, əksinə can qurtarır. Az bir müddət ərzində Turqut Xəlilbəyli dəfələrlə yaralı əsgər və zabitlərimizi döyüş zonasından çıxararaq onları xilas edir.

Oktyabr ayının 4-də Turqutun atası Nadir Xəlilbəyli və onun böyük rəğbət bəslədiyi qohumu Çingiz Məmmədov döyüşçülərimizə mənəvi dəstək göstərmək məqsədilə cəbhə bölgəsində olurlar. Taleh elə gətirir ki, onlar burada Turqutla da görüşürlər. Qısa sürən görüşün sonunda Turqutun öz doğmalarına dediyi son kəlmələr bunlar olur: "Bizdən nigaran qalmayın. Bir yaralımızın da ölməsinə imkan verməyəcəyəm. İnşaAllah Qarabağı alandan sonra görüşərik."

Lakin bu görüş Turqutun öz doğmaları ilə son görüşü olur. Oktyabr ayının 7-də Turqut növbəti döyüşün gedişində yenə də yaralı əsgərlərimizi atəş altından çıxarmaqla məşğul olur. Həmin gün o, yaralı əsgərlərimizi xilas etmək məqsədilə birbaşa atəş zonasına üç dəfə giriş edir. Lakin dördüncü dəfə düşmənin atdığı artilleriya mərmisi Turqutun yaxınlığına düşür. Bu zaman Turqut özünü yaralı əsgərimizin üzərinə atır və öz canı bahasına onun həyatını xilas edir. Aldığı ağır qəlpə yaraları səbəbindən leytenanat Turqut Xəlilbəylinin həyatını qurtarmaq mümkün olmur. Can qurtaran qəhrəman həkimimiz döyüş dostlarının uğurunda, Vətən uğrunda öz canını fəda edir.

Azərbaycan digər qəhrəman övladları kimi, Vətən müharibəsinin ilk şəhid həkimi olan leytenanat Turqut Xəlilbəylini də heç zaman unutmayacaq!

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

# Qarabağ qazisi: "Ard-arda 2 ədəd minaya düşdüm"

***"Kəşfiyyatçının əsir düşməyini qəbul edə bilmirəm. Mənə görə, kəşfiyyatçı əsir düşə bilməz. Ya özünü partlatmalıdır, ya da döyüş meydanından çıxmalıdır". "Ədalət" qəzetinin qonağı Qarabağ qazisi, ehtiyatda olan kapitan Anar Məmmədovdur***

**-Zəhmət olmasa, özünüzü təqdim edin...**

-Ehtiyatda olan kapitan, Qarabağ qazisi Anar Məmmədov. 1981-ci ildə Bakı şəhərində anadan olmuşam. 2005-ci ildə Ali Hərbi Məktəbi bitirmişəm və o vaxtdan ta yaralandığım günə qədər qoşun kəşfiyyatı ixtisası üzrə çalışmışam.

**-Pilot ola bilmədiyim üçün kəşfiyyatçı oldum. Bu barədə danışaq...**

-Ali Hərbi Məktəbə daxil olanda ən böyük arzum idi ki, hərbi pilot olum. Lakin bir balaca səhhətimdə problem olduğuna görə, daha açıq desəm, burnumda çəpər əyriliyi olduğu üçün pilot ola bilmədim. Odur ki, ikinci ən sevdiyim ixtisası seçdim. Allahın izni ilə də kəşfiyyatçı oldum. Bu peşəni seçdiyim üçün peşiman deyiləm.

**-Hərbi xidmət dövründəki xatirələrinizdən söhbət açaq...**

-Kəşfiyyatçının xatirələri onun düşməni izləməsi ilə bağlı ola bilər. Hansısa bir kəşfiyyatçının, zənnimcə, ən gözəl xatirələri budur. Dəfələrlə düşmənin arxasınca fəaliyyətdə olmuşam.

O günlər həyatımın ən gözəl günlərindən olub. Ağdamda, Goranboyda ən gözəl xatirələrim olub.

**-Yaralandığınız günü necə xatırlayırsınız?**

-Yaralandığım gün həyatımda dönüş nöqtəsi oldu. 2015-ci ildə yaralanmışdım. 2015-ci il sentyabr ayının 1-də düşmən ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmənin yerləşdirdiyi 2 ədəd minaya ard-arda düşdüm.

Bu minalar nəticəsinə sağ ayağım zədələndi və sol qolumu itirdim. Yaralandığım vaxt elə bildim ki, həyata yenidən gəlmişəm. Yaralandığımın fərqində ola bilməmişdim. Minaya düşdüm, sanki 2-3 saniyə həyatdan ayrıldım, sonra yenidən bu həyata qayıtdım. Gözümü açanda yenidən doğulmuş kimiydim.



2 minaya düşmək elə-belə bir şey deyil. Şiddətli ağrılar var idi.

Lakin şəxsi heyətimi təhlükəyə atmamaq üçün özümü maksimum dərəcədə toparladım. Yəni nə səsim çıxdı, nə də bir şey.

Ağrılar içərisində tam sakit bir vəziyyətdə idim. Döyüşçü yoldaşlarım məni biz tərəfə aparanda bir-iki dəfə şiddətli ağrılarım tutdu. Onlara dedim ki, siz gedin, mən gələ bilsəm, sonradan gələcəm, gələ bilməsəm də, özümü öldürəcəm. Əlimi atdım ki, tapançamı götürüm, gördüm, yoxdur. Sən demə, mina partlayan zaman zərbəsi tapançanı harasa atıbmış. Şəxsi heyətdən bir əl qumbarası istədim ki, mənə verin, dedilər yoxdur.

Onlar "yoxdur" ifadəsini ona görə söylədilər ki, məni orada tək qoymaq istəmirdilər. Kəşfiyyatçının əsir düşməyini qəbul edə bilmirəm. Mənə görə, kəşfiyyatçı əsir düşə bilməz. Ya özünü partlatmalıdır, ya da döyüş meydanından çıxmalıdır. Nəsə mənə bir döyüşçü yoldaşım Ağayev Şahin dedi ki, mən də sizinlə qalıram, sizi bu döyüş meydanında tək qoya bilmərəm. Mən onu da təhlükəyə atmamaq üçün razılaşıb döyüşçü yoldaşlarımla oranı tərk etdim. 4-5 saat yaralı halda yol gəldik. Sonra xəstəxanaya apardılar. Allahın izni ilə sağ qaldım.

**-Bax Ordumuz döyüş ruhundadır. Əsgərlərimizə, zabitlərimizə nəsə sözünüz var?**

-Bir şeyi düşünürəm ki, şəhid olan qardaşlarımızdan heç bir şeyimiz artıq deyil. Odur ki, biz döyüşməliyik. Döyüşməliyik ki, torpaqlarımız işğaldan azad olunsun. Könüllü olaraq qeydiyyatdan keçmişəm, cavab gözləyirəm ki, icazə verilsin, döyüşlərdə iştirak edim. Ordumuza uğurlar arzulayıram.

Allah ordumuzu, əsgərlərimizi, zabitlərimizi qorusun. Xalqımıza qələbə arzulayıram. Cənab Prezidentin də dediyi kimi, Qarabağ Azərbaycandır!

**Rövşən Tahir**


*Adil Məmməd*




# *Köləsən, miskinsən...*

**Faşist haylara (ermənilərə)**

***Hamıya bəllidir iyrənc xislətin***
***Nə olsun etiraf etməsən də sən,***
***Çoxdan nökərisən gücün, qüdrətin***
***Özün ki bunları yaxşı bilirsən.***
***Məkrdə, hiylədə iblisə taysan***
***Miskinsən, alçaqsan, çünki sən haysan.***

***Özgə torpağına uzanan əlin***
***Yaxşı bil tezliklə kəsiləcəkdir,***
***Yemisən həmişə özgə çörəyin***
***Nə vaxtsa burnundan töküləcəkdir.***
***Tülküsən, özünü pələngdə saysan***
***Oğrusan , qorxaqsan , deməli haysan.***

***Nədən kirlədirsən yer kürəsini***
***Üfunət qoxuyur mənfur nəfəsin.***
***Karsan, eşitmirsən haqqın səsini***
***Hər yanı bürüyür yalvarış səsin.***
***Qurdlu gölməçəsən, düşünmə çaysan***
***Haqdan bixəbərsən, bilirəm haysan.***

***Torpağın bağrında qara ləkəsən,***
***Səni adam etmək çətindir, çətin.***
***Haqqa qayıdarsan dedik, bəlkə sən***
***Sən üz qarasısan bəşəriyyətin.***
***Ölü kəfən cırar xoşuna qoysan***
***Düzələn deyilsən, çünki sən haysan.***

***Neçə sifətin var, ay iblis, sənin***
***Yəqin ki, çoxları tanımır hələ***
***Heç zaman olmayıb yurdun, vətənin***
***Hər vaxt güclülərə olmusan kölə.***
***Xislətin dəyişməz, dərini soysan***
***Köləsən, oğrusan, miskinsən - haysan.***

## *Zelenski Mİ-6 şefi ilə məxfi görüş keçirdi*



**Ukrayna Prezidenti Vladimir Zelenski Britaniyanın xarici kəşfiyyatı olan Mİ-6-nın rəhbəri Riçard Murla görüşüb. Bunu Zelenskinin özü jurnalistlərə açıqlamasında deyib. Görüş Mİ-6-nın ofisində baş tutub.**

O, danışıqların daha çox Ukraynanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı olduğunu bildirib.

Qeyd edək ki, Zelenski keçən həftə Britaniyada səfərdə olub. Riçar Mur cari ildən Mİ-6-ya rəhbərlik edir. O, həmçinin Britaniyanın Türkiyədəki keçmiş səfiridir. Türkiyə və Azərbaycana qarşı xoş münasibəti ilə seçilir.

**MEHRİBAN**




*Asif Rüstəmli*
*Filologiya elmləri doktoru, professor*


# MÜHACİRƏT MƏTBUATIMIZIN MÜQTƏDİR MÜCAHİDİ

**Azərbaycan milli-mənəvi irsinin tərkib hissəsi, ayrılmaz bir parçası sayılan mühacirət mətbuatımızın nadir nümunələri sovetlər dönəmində araşdırılması, öyrənilməsi yasaq edilmiş, arxivlərdə, kitabxanalarda "Tamamilə məxfidir" qrifi altında qıfıllı qaranlıq dolablarda mühafizə olunduğu dönəmdə bu sahə yetmiş ilə yaxın bir müddət ərzində obyektiv, ciddi tədqiqatlardan kənarda qalmış, ən yaxşı halda onu yaradanların və yaşadanların məramı, məqsədi, mübarizəsi, istiqlal məfkurəsi ciddi təhrif edilərək xəyanətkarlıq düşüncəsinin daşıyıcısı, milli və dini ayrı-seçkilik, nifaq, nifrət, kin-küdurət tribunası kimi təqdim olunaraq "tanıdılmış"dır. Ötən əsrin səksəninci illərinin sonundan başlayaraq ölkəmizdə boy göstərən, vüsət tapan milli dirçəliş hərəkatı üzərinə məxfilik pərdəsi çəkilmiş, qadağalar qrifinin zindanında zülmətlərə düçar olunmuş, müstəsna əhəmiyyətə malik mənəvi dəyərlərimizi ilk növbədə istiqlal işığına, idrak nuruna qərq etməyə, çıxartmağa müvəffəq oldu.**

### *Xüsusi idarələrin*

məxfi materiallarla tanış olmaq üçün yalnız partokrat alimlər üçün verdiyi arayışlara, icazə sənədlərinə, buraxılış vəsiqələrinə rəğmən Cümhuriyyət əqidəli, milli düşüncəli, istedadlı, gənc tədqiqatçılar gizli arxivlərə, məxfi materiallara cəsarətlə, böyük inadkarlıq və əzmkarlıqla yol aça, cəmiyyəti yetmiş ilə yaxın gizlədilmiş əsl həqiqətlərlə məlumatlandıra bildilər. İstedadı və cəsarəti ilə yerli və xarici arxivlərə üz tutan, Azərbaycan mühacirlərinin görkəmli nümayəndələri ilə ilk ünsiyyət quran, onların ədəbi-mədəni irsi ilə yaxından tanış olan, vətəndən didərgin salınmış vətənpərvərlərə diqqət və qayğı ilə yanaşan, onların könlünün "sarı siminə" toxunmağı bacaran, sızıltılı vətən yanğısını dərindən duyan gənc, mübariz tədqiqatçılardan biri də Abid Tahirlidir. Mübaliğəsiz demək olar ki, onun Azərbaycan mühacirət mətbuatı sahəsindəki çoxillik səmərəli və məqsədyönlü fəaliyyəti, sanballı tədqiqat əsərləri humanitar elmimizin inkişafında, elmi-mədəni dəyərlərimizin zənginləşməsində ciddi rol oynayır və mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, müxtəlif illərdə Abid Tahirlinin həyat və fəaliyyəti ilə bağlı ölkəmizdə və xaricdə fərqli peşə sahibləri- alimlər, ədəbiiyyat və mədəniyyət xadimləri, jurnalistlər 200-dək məqalə yazmış, onlarla tədqiqatçı onun əsərlərinə istinad etmiş, yazılarından sitatlar gətirmişlər. Xalq yazıçısı Anar, akademiklər Yaşar Qarayev, Bəkir Nəbiyev, Nizami Cəfərov, Hüseyn Əhmədov, professorlar Şamil Vəliyev, Məhərrəm Qasımlı, Nizami Tağısoy, Tehran Əlişanoğlu, Səbahəddin Şimşir, Xaləddin İbrahimli, Ağərəfi Zeynalov, İslam Ağayev, Şamil Qurbanov, Bəhlul Abdullayev, Həsən Quliyev, Əflatun Məmmədov, Vaqif Arzumanlı, Tofiq Hüseynoğlu. Cahangir Məmmədli, Aydın Dadaşzadə, Himalay Qasımov, Buludxan Xəlilov, Asəf Hacıyev, Alxan Məmmədov, Nazif Qəhrəmanlı, Vaqif Sultanlı Abid Tahirlinin tədqiqatları haqqında fikir və mülahizələrini irəli sürmüş, onun fəaliyyətini təqdir etmişlər.

### *Xalq yazıçısı Elçin*

***Abid Tahirlinin monoqrafiyalarını "ictimai fikrimizdə əhəmiyyətli və sanballı tədqiqatlar" kimi xarakterizə etmiş, akademik İsa Həbibbəyli Abid Tahirlini "çağdaş mühacirət ədəbiyyatşünaslığının əsas yaradıcılarından biri", "mühacirət epoxasının böyük salnaməsini yaradan vətəndaş ziyalı" adlandırmış, professor Xeyrulla Məmmədov Abid Tahirlinin tədqiqatlarını "sahənin lokomotivi", professor Nizaməddin Şəmsizadə "ədəbiyyat möhürləri" kimi səciyyələndirmişdir.***

Abid Tahirli 65 il əvvəl Qəbələ rayonunun Nohurqışlaq kəndində anadan olmuş, 1975-1980-ci illərdə Bakı Dövlət Universitetinin (sabiq ADU) Jurnalistika fakültəsində ali təhsil almış, 1982-1987-ci illərdə Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin xaricdəki həmvətənlər üçün nəşr etdiyi "Vətənin səsi" adlı qəzetdə müxbir işləmiş, 1988-ci ildən isə Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti - "Vətən" Cəmiyyətinin orqanı olan "Odlar yurdu" qəzetində əvvəlcə müxbir, sonra böyük müxbir, məsul katib, redaktor müavini vəzifələrində çalışmışdır.

### *Abid Tahirlinin imzasına*

***əvvəllər müxtəlif mətbuat orqanlarında rast gəlsəm də, özü ilə şəxsən 1988-ci ildə Vətən Cəmiyyətinin "Odlar yurdu" qəzetinin redaksiyasında görüşüb tanış olmuşduq. Vətənin ikinci adını fəaliyyət istiqaməti üçün başlıq seçən qəzetin kollektivi əsl vətənpərvər ruhlu qələm əhlindən, istedadlı söz ustalarından, təəssübkeş ziyalılardan ibarət idi. Abidlə ilk ünsiyyətdən o aydın milli düşüncələri, sabit siyasi mövqeyi, saf və bir az da çılğın təbiəti, qaynar baxışları ilə mənə Odlar yurdunun od oğlunu andırırdı. Çalışdığı qəzetin 1988-90-cı illərinin köhnə dəstlərini bu gün nəzərdən keçirdikcə, saralmış səhifələrdən zamanın pərdələdiyi, diqqətdən yayındırdığı mövzuların hələ də qorlandığını, közərdiyini duyursan, ...duyğulanırsan. "Dünənə pəncərə", "Dahi mütəfəkkir və ədib", "Ömür vəfa etsə... (prof. İren Məlikov haqqında), "Haray", "Hər tablonun öz taleyi", "ADR haqqında söz", "A.İmdadi: Sərgilərim silahımdır", "Dədə Qorqud" Danimarkada", "Azərbaycan Mədəniyyət Mərkəzlərinin I qurultayı" və digər onlarla zamanın, dövrün faktına çevrilmiş yazılar, məqalələr, müsahibələr mahiyyət etibarilə gənc jurnalistin milli istiqlalçılıq, yurdsevərlik mövqeyini, elmi müşahidələrini, cəsarətini, can yanğısını birmənalı olaraq təsdiqləyir.***

Təxminən 30 il bundan əvvəl - 1991-ci ilin mart ayı idi. AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayevin təşəbbüsü, Nizami adına Ədəbiyyat İnstitutu, "Vətən" Cəmiyyəti və Ankaradakı Azərbaycan Kültür dərnəyinin təşkilatçılığı ilə Bakı şəhərində "Azərbaycan mühacirət ədəbiyyatı" adlı beynəlxalq elmi simpozium keçirilirdi. Yalnız Türkiyədən və Avropa ölkələrindən 30 nəfərdən çox görkəmli alimlər, ictimai-siyasi xadimlər, mühacirət irsinin tədqiqatçıları Bakıya, Beynəlxalq elmi simpoziuma təşrif gətirmişdir. Qonaqların arasında Ankaradakı Azərbaycan Kültür dərnəyinin rəhbəri Cəmil Ünal, Prof.Dr. Əli Yavuz Akpınar, Əhməd Bican Ercilasun, Qulamrza Səbri Təbrizi, Əhməd Qaraca, Ürfan Murad Yıldırım, Yavuz Bülənd Bakülər, Tuncar Kırhan, Fəxrəddin Gülsevən, Süleyman Tekiner, Hüseyn Tuncər, Əli Rza Turan, Servet Gürcan və digər tanınmış ziyalılar yer almış, elmi simpoziumun işində maraqlı, yeni faktlarla zəngin məruzələri ilə fəal iştirak edirdilər. Bu böyük elmi, ədəbi-mədəni tədbirin xaricdən dəvət olunan nümayəndələrinin qarşılanmasında, onlarla sıx ünsiyyətin qurulmasında, qonaqların fəaliyyət



sferasının tanıdılmasında və təbliğində "Vətən" cəmiyyətinin səlahiyyətli, fəal və cəfakeş təmsilçisi Abid Tahirli idi. O, çoxlarından fərqli olaraq simpozium iştirakçılarının böyük əksəriyyətini öncədən tanıyırdı.

### *Xaricdəki dostları*

***yaxşı bilirdi ki, A.Tahirli mühacirət mətbuatını xeyli müddətdir ki, ciddi araşdırır və ona ən dəyərli hədiyyələri jurnal nümunələri olardı.***

Abid müəllimin tapşırılan işə can yandırması, məsuliyyət hissi ilə yanaşması, sərişdəsi, fədakarlığı yüksək dəyərləndirilərək vəzifə pillələri ilə irəli çəkilirdi. O, 1992-1993-cü illərdə "Vətən" Cəmiyyəti Avropa və Amerika ölkələri şöbəsinin müdiri, 1993-cü ildən isə Azərbaycan Respublikası Nazirlər Kabinetində Humanitar və sosial problemlər şöbəsinin baş məsləhətçisi vəzifəsində çalışır. Humanitar və sosial problemlər sahəsindəki fəaliyyəti dövlət qulluğu olaraq elmi tədqiqat işi üçün məhdudlaşdırıcı xüsusiyyətlərə rəğmən o illərlə topladığı çoxsaylı unikal, elmi ictimaiyyəti üçün naməlum materiallar əsasında, Cümhuriyyət dövrünün ilk və əsas rəsmi mətbuat orqanı olan "Azərbaycan" qəzetinin birinci baş redaktoru "Ceyhun Hacıbəylinin həyat və yaradıcılığı" mövzusunda yazdığı dissertasiya işini tamamladı və 1997-ci ildə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Dissertasiya Şurasında müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi aldı. Bəziləri düşünürdü ki, A.Tahirli dövlət qulluğu kimi məsul sahədə çalışması ilə əlaqədar elmi dərəcənin birinci pilləsi ilə kifayətlənəcək və araşdırmalarını davam etdirməyə həvəs göstərməyəcək. Təbi ki, oxşar gümanları, ehtimalları bölüşənlər və eyni zamanda onun iradəsini, çevikliyini, qətiyyətini, fədakarlığını obyektiv dəyərləndirməyi bacarmayanlar yanıldılar.

**Abid Tahirli qeyri-iş saatlarını, istirahət və bayram günlərini yorulmaq bilmədən elmi tədqiqat işinə həsr etdi. Vaxtilə təhsil aldığı Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin xeyir-duası ilə "Azərbaycan mühacirət mətbuatında publisistika" (1921-1991-ci illər) adlı doktorluq mövzusunu təsdiqlədir. Uzun illərdən bəri apardığı araşdırmalar əsasında mövzi ilə əlaqədar yeni, maraqlı elmi məqalələr və kitablar nəşr etdirməyə başlayır.**

### *"Azərbaycan mühacirəti"*

adlı Abid Tahirlinin ilk kitabı onun bu mövzuda araşdırmaya başladığı müddətdən 25 il sonra - 2001-ci ildə nəşr edildi. Seçilmiş məqalələrdən tərtib edilən toplunun əlyazma nüsxəsi ilə tanış olanlardan biri kimi əminliklə deyə bilərəm ki, A.Tahirli uzun illər kitab çap etdirməyə tələsməməkdə, elmi araşdırmalarını milli mühacirətin köklü problemlərinə həsr etməkdə haqlı idi. Kitabın girişində müəllif "Mühacirət tarixinə bir nəzər" salır, Avropa ölkələrində yaradılmış "Mədəniyyət mərkəzləri"nin fəaliyyət istiqamətlərini tədqiq və təhlil edir, mühacirət mətbuatının yaranması, yayılma arealı, problemləri, məhrumiyyətləri və inkişaf dinamikası ciddi faktlar əsasında geniş işıqlandırılır. Abidin araşdırmalarında səbəblər fərqli olsa da şimallı-cənublu mühacirlər tam, bütöv halda, vahid müstəvidə dəyərləndirilir. Onun Parisdə yaşayan rəssam Davud və Əyyub İmdadian qardaşları, Edinburq Universitetinin professoru Qulamrza Səbri Təbrizi, London Universitetinin professoru Turxan Gənceyi, ABŞ-da Tolido Universitetinin professoru Şapur Ənsari, Kanadanın Dəlhavz Universitetinin professoru, tanınmış riyaziyyatçı Heydər Rəcəvi, Parisdə məskunlaşmış dünya şöhrətli yazıçı Ümmülbanu (Banin), Strasburq Humanitar Elmlər Universutetinin professoru İren Məlikova, Frankfurt şəhərindəki "Dağyeli" nəşriyyatının təsisçisi və rəhbəri İldırım Dağyeli, Bonnda "Ana dili" qəzetini naşiri Nurəddin Qərəvi, dünya şöhrətli rəssamlar İbrahim Əhrari, Məmməd Səlim Turan, Strasburq sakini, kimya elmləri doktoru Əhməd Mehribani, Oslodakı "Azərbaycanın səsi" radiosunun redaktoru və diktoru Ruqiyyə Əsgəri və digər görkəmli elm, mədəniyyət, incəsənət xadimləri - soydaşlarımız haqqında "Azərbaycan mühacirəti" kitabında yer alan düşüncələrdən, məlumatlardan onların fəaliyyət yönümü, mübarizələri, doğma vətənə, milli birlik idealına bağlılıqlar, Dağlıq Qarabağ hadisələrinə, Ermənistanın Xocalı şəhərində törətdiyi soyqırımı vəhşi-liyinə həssas münasibətləri, Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra mühacirlərin yaşadıqları ölkələrdə siyasi qüvvə kimi təşkilatlanma prosesinə qədəm qoyduqları peşəkar mütəxəssis ümumiləşdirməsi, məntiqli arqumentlərlə, danılmaz faktlarla qeyd edilmişdir. A.Tahirli mövcud mühacirətin ictimai-sosial panoramını təsəvvürdə canlandırmaq üçün bu sahə-nin araşdırıcılarına xatırladırdı: "Bu mövzuda yazan müəllif ilk növbədə "mühacirət", "diaspor", "lobbi" sözlərinin mənasını özü üçün aydınlaşdırmalıdır. Sonra isə mühacirət, onun yaranma tarixi və mərhələləri, coğrafiyası, sayı, sosial tərkibi, cəmiyyətdəki təsir qüvvəsi, mövqeyi, rolu və s. kimi məsələlər dəqiqləşdirilməlidir. Təşkilatları, dərnəkləri, KİV şəbəkəsi, maliyyə imkanları öyrənilməlidir.

Bütün bunlardan sonra mühacirətin mövcud mənzərəsi göz önünə gələcəkdir" (A.Tahirli. "Azərbaycan mühacirəti", Bakı, 2001, səh.321).

**A.Tahirli məhz mövzunun dərin qatlarını işıqlandırmaq, toplanılan materialları incələmək üçün əldə edilən nailiyyətlərin, müsbət tendensiyanın yol xəritəsini ardıcıllarına tövsiyə etməkdə haqlıdır. Özü də eyni kəşməkəşlərdən, dolanbaclardan keçərək mövzunun incəliklərinə, spesifik xüsusiyyətlərinə dərindən və hərtərəfli bələd olmuşdur. Onun ikicildlik "Azərbaycan mühacirət mətbuatı" monoqrafiyasının 1-ci cildi 2002-ci ildə "Qapp-Poliqraf" Korporasiyasında, 2-ci cildi isə 2003-cü ildə "Ozan" nəşriyyatında işıq üzü görmüşdür.**


**(ardı növbəti sayımızda)**





*ULDUZ QASIM*


# SOLMAYAN NƏRGİZ

***Otuz ildən artıq bir müddətdə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində yaşayan, əslən isə bu günlərdə düşmən tapdağından təmizlənən Cəbrayıl rayonundan olan Azərbaycan yazıçısı Ulduz Qasım özünün Qarabağdan bəhs edən yeni romanını nəşrə hazırlamışdır. Elə indicə qulağı səsdə, gözü ekranda, yəni cəbhədən gələn xəbərlərin qəhər qarışıq sevinci altında (hamı kimi!) Ulduz xanımın son cümlələri ümid nuruna bələnmis yeni əsərini oxuyub başa vurdum və bəlkə də onu ilk oxuyanlardan biriyəm. Bu qısa təqdimatın əsər barədə ilk rəy olduğu isə şübhəsizdir. Bu səbəbdən qısaca olaraq qeyd edim ki, mövzu, hadisə, süjet, bir sözlə, bəlli bir zaman və məkan daxilində təqdim olunan həyat həqiqəti və bədii ifadənin nail olunmuş səviyyəsi kifayət qədər təsirli, eyni zamanda unudulmazdır. Roman "Solmayan Nərgiz" adlanır. Bu, "Qürbət Zöhrəsi", "Xocalı şikəstəsi" əsərlərindən sonra ( hər iki roman Baki ilə yanaşı, istedadlı türkiyəli yazar İmdad Avşarın çevirməsində İstanbulda da işıq üzü görmüşdür), qürbətdə yaşasa da qəlbi daim Vətənlə birgə çırpınan yazıçının özünün dediyi kimi, müqəddəs mövzuda qələmə aldığı üçüncü irihəcli yazıdır. Amansız düşmənin təcavüzündən inanılmaz əziyyət çəkən, yurdu zorla əlindən alınan, ən ekstermal vəziyyətlərdə belə fərdi, milli, tarixi ləyaqətini qorumağı bacarmış insanlardan danışan "Solmayan Nərgiz"ə, məncə, xoşbəxt roman deyilə bilər. Çünki əsər küllü-Qarabağın, o sırada Cəbrayılın Ali baş komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz tərəfindən azad olunduğu günlərdə işıq üzü görür. Canından artıq sevdiyi Cəbrayılın 30 ildən sonra azadlığa qovuşması və qələmə aldığı yeni roman münasibəti ilə Ulduz Qasımı təbrik edirəm. Əsərin əvvəlindən alınmış qısa parçayla tanış olun.***

***Rəhilə GÜLGÜN,***
***Yazıçı-publisist, "Loqos" jurnalının baş redaktoru.***

**(Romandan parça)**

Qəfildən qadınlar arasında qışqırtı qopdu. İndi də Qızbəs arvad huşunu itirmişdi. Kimi-kimsənəsi olmayan binəva qocanı qonşular hayan durub çayın qırağına qədər gətirmişdilər. Torpağın üstünə çul kimi sərələnib hərəkətsiz qalan qadına hərə bir tərəfdən nəsə yardım eləməyə can atırdıdı. Dua eləyir, yaş dəsmalla üzünü, qupquru, taqqanaq sinəsini yaş dəsmalla isladırdılar. Rəcəb yaxınlaşıb qadının arıq biləyindən yapışdı, nəbzini tutdu, susub dinlədi, nəbz vururdu:

- Yaşayır, basabas salmayın. Yaşlı adamdı dayna. Bir heylə yolu payi-piyada gəlmək zarafat deyil ha, cavannarın nəfəsi kəsilib, qaldı ki, o ola. Kim bilir bəlkə heç bir tikə yavan çörək gəvələməyə də imkan tapmayıb binəva arvad, yemək-filan yeməyibsə, demək şəkəri qalxıb. Qoy görək, Hikmət allahsaxlamış qayıtsın, bu dönüş arvadı mütləq göndərərik o taya.

Rəcəb uzun nitqini bitirib, Hikmətin qayıdıb gələ biləcəyi səmtə boylandı. Elə bil onun bu sayaq boylanmağına bəndmiş, həqiqətən də oğlan iri və tələsik addımlarla yaxınlaşırdı… O, çatdı, sanki bayaqdan burada nə baş verdiyini, söhbətin nədən getdiyini irəlicədən bilirmiş. Gəlib yetişən kimi Qızbəs arvadı yüngül yun topası kimi qolları arasına alıb sinəsi bərabərində yuxarı qaldırdı.

- Gəl, anam, gəl, hər şey yaxşı olacaq…

-Allah köməyin olsun , bala, kaş ölüb bularda qalaydım, sizə belə yük olmayaydım, əzizlərimin yanında basdıraydılar məni... Atamın-anamın yatdığı qəbrstanlıqda yataydım. Özümə qəbir daşı hazırlatmışdım, qəbrstanlıqda yer nişanlamışdım səki!

- Danışıb, özünü yorma, ay ana, beş-on dəqiqəyə o tayda olacaqsan. Ölmək nədi? İxtiyar çağında sənin kimi anaya zülm eləyənlər gəbərsin!

Qızbəs arvad yerbəyer olandan sonra o, digər qadınlara səsləndi:

- Gəlin görün bura neçəniz yerləşir, bərk tutun ki, suya düşməyəsiniz.

Qadınların bir neçəsi bulduzerin yedəyindəki lapetə doluşdu. Qalanlara səbirli olmağı tapşırdı oğlan:

- Bir azdan qayıdıb sizi də keçirəcəyəm.

Bu tayda qalıb gözləyənlərin əksəriyyəti gənclər idi, əvvəl yaşlıları, uşaqları daşımışdı.

Ac və yorğun insanların düşüncələri donmuşdu.Ömürboyu qurub-tikdikləri ev-eşik, qapıda qoyub gəldikləri heyvanlar, toyuq-cücə, nə də təpili-tıxalı evlər vecə gəlmirdi.Amma qovulub getdikləri torpağa bir də qayıtmayacaqlarını fikirləşəndə ağır dərd tüstülənə-tüstülənə bir də közərirdi.Yaddaş ocağını yel üfürüb yenidən alışdırırdı.Təpədən tüstü çıxmaq bax, buna deyiblər.Yaxşı ki, bu ümidlər var, yoxsa, dəli olar insan. Bu torpaqları bir daha görməmək gecələr yuxunun ərşə çəkilməsi, gündüzlər əl-qolun qırılıb yanına düşməsi, dəli olmaq deməkdi, vallah!

Bir iş var ki, min illərdən bərkiyə-bərkiyə bu günə yetişən xalq müdrikliyinin cövhərini Tanrıya ümid təşkil edir. İnsanlar inanırlar ki, ən dar macalda da Allah onları tək buraxmır. O gözəgörünməz qüvvə yaratdığı bəndələrinə qarşı lütfünü bir an belə əsirgəmir…

***

…Birdən hələ tələbəlik illərində yazıb doldurduğu dəftərlər və elə o illərdə alıb oxuduğu kitablar Zeynəbin yadına düşdü. Az qaldı ürəyi dayana. Günlərlə gizlincə dəftərə köçürdüyü xatirələrini, şeirlərini necə qoyub gedə bilərdi.Geri dönməli, onları götürməliydi.Qızın qəti qərarı beləydi, amma necə dönsün?Bu yandan da anası bir an olsun qızını gözdən qoymurdu.Elə bil onu itirəcəyindən qorxurdu.Neyləsin, belə qarışıq vaxtda nə desən olar. Ayağını sürüyə-sürəyə irəli yerisə də qəlbi onu geri çəkirdi… Nəsə bir bəhanə gərəkdi, qız düşündü. Hə, bəlkə anasının atasından nigaran qalması kara gəldi.

- Ana, atam çox yubandı, heyvanları Arazdan keçirib yanımıza gələsiydi, qonşular hamısı qayıtdı, amma, atam yoxdu. Bəlkə gedim baxım görüm heyvanları keçirə bildi ya yox…

- Atan uşaq deyil, buraların hər qarışına bələddi, necə olsa, heyvanları keçirib gələcək. Piyada deyil ha, altında atı var.

- Atamın xasiyyətinə yaxşı bələdsən, ana, əgər mal-qaradan bircəciyini çaydan keçirə bilməsə, özü də o taya keçəsi deyil. Mənə nə olasıdı, gedim əl-ayaq verim, tez keçirək heyvanları.

Deyəsən anasını sıyılda bilmişdi.Arvad bir qədər susdu, dillənmədi. Qız fürsətdən istifadə etdi, yalvarıcı səslə dedi:

- İcazə ver gedim, ana, atamdan xəbər tutmaq istəyirəm.

İcazə demək olar ki, alınmışdı. Qız iti səslədi:

- Saymaz, Saymaz, gəl görüm, getdik.

İt quyruğunu bulaya-bulaya Zeynəbin böyrünə düşdü. Onlar ölüm-zülüm gəlib yetişdikləri, guya etiarlı məkandan üzü geri, bir müddət əvvəl hamı tərəfindən ellikcə tərk edilmiş kəndə sarı tələsirdilər.Arazın qırağına çatdılar. Zeynəb suyun dərinliyini, dayazlığını eyninə almadan özünü çayın axarına buraxdı...

…Huşu başına gələndə qız göz qapaqlarını ağır-ağır açdı, o quruca torpağın üstündə uzanılı qalmışdı. İt onun yaş paltarını yalayırdı.Sanki bu vəziyyətdə çox qalsa sahibinə soyuq dəyəcəyindən qorxurdu. Qız iniltili səslə çağırdı:

- Saymaz…

Köpək məzlum-məzlum Zeynəbə baxdı.

- Deməli məni sudan sən çıxarmısan? Heç bilmədim niyə batdım, axı mən üzməyi yaxşı bilirəm. Elə bil başıma daş vurdular…

Ufultu içində ayağa qalxdı. Kəndin başındakı kanala çatanda görüb eləyən olmasın deyə özünü çuxura saldı, kanalın içi ilə yarıbükülmüş getdi… İt sanki təhlükə olacağını irəlicədən hiss edir, qızın yanından aralanmırdı. Zeynəb canı bahasına risk elədiyinin fərqində idi, amma həyatının acılı-şirinli anlarını, duyğularını köçürdüyü dəftərlərindən ayrılmaq, onun əllərə düşməyini, yağışda, suda islanmağını, yaxud Allah bilir, bu gün ya sabah düşmənin od vurduğu evin içində yanıb külə dönməyini istəmirdi. O vərəqlər arasında, o sətrlər içində Zeynəbin həyatı çırpınırdı…

***

Pəri sanki yuxudan ayıldı.Fəzli atın belində onlara tərəf çapırdı.Arvadı elə bil ildırım vurdu. Bəs Zeynəb hanı, kişi niyə təkdi? Qorxu və həyəcandan gözü böyüyən qadın atlıya sarı ayaqlandı.Səsi sanki quyu dibindən gəlirdi:

- Fəzli, Zeynəb hanı?

- Qızı məndən niyə soruşursan, axı, sizi birgə yola saldım?

- Mənə dedi atamdan xəbər tutmağa getmək istəyirəm, sonra da aralaşdı. Oy, Allah!

- Nə oldu?

- Biz bu andır yola çıxandan sonra vaysınırdı ki, dəftərləri qalıb evdə, onların dalınca qayıtmış olmasın?

Fəzli kişinin sanki beli qırıldı, zorla atdan düşüb yerə çökdü.Pəri arvad ərinə təskinlik vermək istəsə də qızının təhlükədə olduğunu düşündükcə, ürəyindən qara qanlar axırdı.Fəzli kişinin beynində bircə fikir vardı, qız o namussuzların əlinə keçməsin, yoxsa bu dünyada yaşamaq ona haram olardı.

- Fəzli, qalx ayağa, özünə gəl. Allahım, sən mənim balamı qoru!

Pəri arvadın hay-harayını eşidən qonum-qonşu onların başına toplaşdı. Rəcəb irəli yeriyib Fəzi kişiyə sarı əyildi:

- Nə olub, ay Fəzli dayı, bu nə səs-küydü?

Pəri arvad kişinin cavabını gözləmədən iki əli ilə başına vurub hönkürdü:

- Ay elim, günüm, qızım, Zeynəb… - sözünü tamamlaya bilmədi, bir anda yaşı sel kimi axan gözləri böyüyüb az qala hədəqəsindən çıxdı.

Rəcəb Fəzli kişini silkələdi:

- Fəzli dayı, sən Allah özünə gəl, bir düz əməlli söz deyin, bilək Zeynəbə nə olub?

- Nə bilim, ay bala, anasının dediyinə görə evdə vacib dəftər-kitabı qalıbmış, onların götürməyə qayıdıb kəndə...

Qonşu qadınlar huşunu itirmiş Pərinin üz-gözünə su vurub ayıltdılar.

Rəcəb dilləndi:

-Fəzli dayı, sakit ol bir az, dünya görmüş adamsan, Zeynəbin qoçaqlığını bu kənddə bilməyən yoxdu, bilirəm, nəyin fikrin çəkirsən, o qız ölər, amma özünü ələ verməz. İt də yanındadır, harda olsa gəlib çıxacaq.

Rəcəb gəncləri səslədi:

- Uşaqlar, səpələnin ətrafa, amma səssiz olun, hərəmiz bir yandan yan-yörəyə baxaq.

Qonum-qonşu nə qədər cəhd eləsə də Pəri aram olmurdu. Arvad elə hey dizinə, başına döyür, qıza getməyə izn verdiyinə görə özünü günahlandırır, vaysına-vaysına ağlayırdı:

- Dilim-ağzım qurusun, nə biləydim mən bu qızın baş alıb gedəcəyini. Uşaqlıqdan dəftər-kitab azarlısıdı, bilmirəm nə var o dəftərdə, əlindən yerə qoymur. Bir deyən lazımdı ki, ay bala, millət can hayındadı, mal-mülk yaddan çıxıb, hər yerdə qaçaqaçdı, sən neynirsən axı bir əlcə dəftəri, dəftərdən çox dəftər var, nə qədər istəyirsən yaz doldur. Dedim yəqin atasıynan tapışar, bikir dönəllər.

Fəzli kişi Pəriyə acıqlandı:

- Bəsdi, ay arvad, bəsdi gözünün qorasını sıxdın, Allah böyükdü, dua elə, sağ-salamat gəlib çıxar, inşallah.

***

Zeynəb evlərinin qənşərindəki kolluğa sığındı, yaxınlıqdan erməni dilində danışıqlar eşidilirdi.Deməli onlar gəlib kəndə doluşublar, deməli yurdu tərk etməkdə adamlar düzgün qərar veriblər. Hamını gülllədən keçirəcəkdilər, quduzlar!

Zeynəb yanlış addım atdığını bilsə də nə geriyə, nə də irəliyə yolu olmadığını anlayırdı. Köpək sanki təhlükənin yaxında olduğunu hiss edir, nəfəsini içinə çəkərək təsəlli verirmiş kimi sakitcə Zeynəbin əlini-ayağını imsiləyirdi. Qaranlığın düşməsini gözləməkdən başqa çarə qalmamışdı. Amma ermənilər bir az irəli gəlsəydilər, indi gizləndikləri yerdə onları rahatca görə bilərdilər. Zeynəb Saymaza işarə elədi ki, kanaldakı kolluqdan çıxıb daha etibarlı yerdə, qarşılıqdakı qamışlıqda gizlənməlidirlər.

O, həmişə qorxmazlığı, cəsarəti ilə oxuduğu məktəbdə, yaşadığı kənddə yaşıdlarından fərqlənmişdi. Bəzən oğlanlar onun cəsarətinə, iradəsinə mat qalırdılar. Zeynəb bir işə qol qoydusa, nəyəsə söz verdisə, onu nəyin bahasına olursa-olsun yerinə yetirməliydi.Amma indi vəziyyət başqaydı. Azğın düşmənlə az qala nəfəs-nəfəsə olan qızı damarda qanı donduran bir təlaş bürüyürdü, ürəyi sanki ağzında döyünürdü. Ermənilərin səsi kəsilmişdi, qaraltılar qeyb olmuşdu. Qız sürünə-sürünə sıx kolluqdan çıxıb qamışlığa sarı hərəkət etdi. Köpək bir ağız hürdü.Bu dəfə də qarşıdan qarışıq səslər qalxdı. Yad adamlar nəsə duymuşdular, uzaqdan iki qaraltı onların sığındığı yerə sarı irəliləyəndə qızın az qala nəfəsi durdu. Onu ölüm qorxutmurdu.


**(ardı növbəti sayımızda)**

Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

№ 116 (2150) 15 oktyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# Gücümüzün ünvanı – Ali Baş Komandan!

**Sentyabr ayının 27-dən başlayaraq bütün dünya Azərbaycandan danışır. Dünyanın demək olar ki, bütün media məkanlarında baş mövzu Azərbaycan, baş qəhrəman Azərbaycandı. İndi hər kəs 30 illik sükutdan sonra Azərbaycanın varlığını, Azərbaycan həqiqətlərini görməyə və qəbul etməyə başalyıb.**

Dünya sanki özünün ”ayı yuxusundan” oyanıb. Bu da sentyabr ayının 27-də düşmənin təxribatının qarşısını alaraq əks hücuma keçən Azərbaycan Ordusunun və bu ordunun Ali Baş Komandanın diqqətidir. Görünür, ”hər şeyin zamana ehtiyacı var” müdrik kəlamı öz növbəsini gözləyirmiş. O növbə bizə də gəlib çatdı. Və biz artıq kimliyimizi, iradəmizi, qətiyyətimizi ortaya qoyduq. Bununla da təxribatlarla, həyasızlıqlarla, terrorla torpaqlarımızda işğalçılıq ömrünü uzadan Ermənistanın sözün həqiqi mənasında şah damarı kəsildi, bel sütunu qırıldı. Düşmən gördü ki, onun qarşısında 90-cı illərin Azərbaycanı yox, bu gün dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Ordusu, Azərbaycan dayanıbdı! Heç də təsadüfi deyil ki, xalqımıza müraciət edən Ali Baş Komandanımız cənab İlham Əliyev birmənalı şəkildə vurğulamışdı ki, ***”Bizim mübarizəmiz haqq mübarizəsidi. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, bunu edirik və bu işlərdə, bu istiqamətdə uğurlar əldə etmişik”.***

Bəli, həqiqətən də biz 30 il bu günü gözləmişik. Düşünmüşük ki, problemin çözümü ilə məşğul olan beynəlxalq təşkilatlar, xüsusilə ATƏT-in Minsk qrupu və onun həmsədrləri ədalətin bərpası üçün qətiyyətli addımlar atacaq, BMT-nin məlum qətnaməsinin icrasını təmin edəcəklər. Çox təəssüflər ki, bu belə olmadı. Və ən acınacaqlısı da odur ki, bu gün Minsk qrupunun həmsədr ölklərindən biri, yəni Fransa özünün ermənipərəst, işğalçıya dəstək verən mövqeyini ortaya qoyub. Onun ikili siyasətinin üstü açılıb. Bu da məhz Fransa prezidentinin açıqlamaları ilə, Azərbaycana təyziq etmək çağırışları ilə faş olubdu. Amma Azərbaycan xalqı ölkə prezidentinin də dediyi kimi, ***”Bu, bizə qarşı edilən haqsızlıqdı. Bu, yalan məlumat əsasında ifadə edilən açıqlamadı. Bu ya yoxlanılmamış, təsdiqini tapmamış məlumat əsasında deyilib, ya da ki, bu qəsdən deyilib. Bizə qarşı edilən haqsızlıq təbii ki, biz tərəfdən cavablandırılır. Biz buna səssiz qala bilmərik”.***






Çox maraqlıdır ki, Azərbaycanın sərt və qəti mövqeyi təkcə düşmənlərimizi yox, hətta özünü ”xoşməramlı” göstərmək istəyənlər üçün də gözlənilməz oldu. Belə ki, biz beynəlxalq hüquqa, ədalətə, reallığa üstünlük verərək problemin sülh yolu ilə həll olunacağına zaman-zaman ümid bağlamışdıq. Görünür elə bu da düşmənlərə müəyyən mənada arxayınçılıq hissi aşılamışdı. Lakin Azərbaycan Prezidentinin sərt açıqlamaları, Rusiya və digər ölkələrin telekanallarındakı müsahibələri, onun mükəmməl rus və ingilis dillərində etdiyi çıxışlar hər kəsə gerçəyi açıq şəkildə göstərdi. Ən yaddaqalan məqamlardan biri də bu oldu ki, Rusiya televiziyasında sualları cavablandıran mövqeyi verilişin aparıcısını, oradakı ermənipərəst auditoriyanı da şoka saldı. Azərbaycan Prezidentindən sonra verilişin ikinci qonağı olan Ermənistanın baş naziri Nikol Paşinyan məntiqsiz, yalvarış notlu çıxışı ilə özünün və ordusunun durumunu nümayiş etdirdi. Açıq-aşkar göründü ki, ordumuzun ilk həmlələri özünü öyən, küçədən hakimiyyətə gələn Nikolu əməlli-başlı qorxuya salıb. Digər tərəfdən, onun Moskva televiziyasına müsahibə verərkən hökümət binasının işıqlarının sönməsi, bunu ardınca özünün təyin etdiyi məmurları xəyanətkar kimi vəzifədən kənarlaşdırması da bir daha sübut etdi ki, Ermənistan hakimiyyəti sözün bütün mənasında son nəfəsində can üstündədi.

Bu gün xalqla Ordunun birliyi, hər kəsin Zəfər ruhu ilə yaşaması, hər birimizin Ali Baş Komandanın yanında olmamız dünya mediasında da, xüsusilə qardaş Türk mətbuatında geniş şəkildə təbliğ olunur. Apardığımız Böyük Vətən Müharibəsi dünyaya göstərir ki, biz döyüşməyi və qalib gəlməyi də bacarırıq.

İstər Suqovuşana sancılan, istər Cəbrayılda dalğalanan bayrağımız göstərir ki, bu bayraq bizi üzü Şuşaya doğru aparır.

Və deməli, xalqla ordumuzun birliyi şanlı Qələbənin təməl daşıdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın da dediyi kimi, ***”Biz müharibənin başlanmasına görə məsul deyilik. Dediyim kimi, biz Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Ermənistan ordusunun fiziki hücumuna məruz qalmışıq. Bundan əlavə, Ermənistandakı indiki rejim danışıqlar prosesini məhv etmək üçün hər bir şeyi etmişdi. Ermənistanın baş naziri ”Qarabağ Ermənistandır” bəyanatını vermişdi. Bu bəyanatda biz də işğal olunan ərazilərin qaytarılmasını tələb edir”.***

Doğrudan da sentyabrın 27-dən öncə pafosla danışan, öz iddialarına sığışmayan Ermənistanın baş naziri bu gün dünya dövlətlərinin qapısını döyür. Böyük dövlətlərin başçılarına əl açıb yalvarır, onlardan kömək istəyir. Yalvarışlarında Azərbaycanı durdurmaq, Azərbaycan Ordusundan atəşkəsi tələb etmək ifadə olunur. Amma unudur ki, artıq bu ordunu yalnız Qələbə durdura bilər. Çünki bu Ordunun Ali Baş Komandanı birmənalı şəkildə bəyan edib: ***”Dağlıq Qarabağ bizim torpağımızdır. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. Mən heç zaman imkan verməyəcəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq”.***

Bəli, indi Ordumuz tarix yazır. Bu tarix canımızla, qanımızla yazılır. Çünki bu tarix bütövlüyümüzdür, həm də bu tarix Qələbəmizdir. Onun da müəllifi, sərkərdəsi Azərbaycan Prezident cənab İlham Əliyevdir! Biz onunla və Ordumuzla güclüyük! Xalqımız bu gücün yanındadır!

***P.S. Xalqımıza müraciət edən Ali Baş Komandan cənab İlham Əliyev hər birimizi təbrik etməklə Hadrut qəsəbəsinin azad edildiyini bəyan etdi. Ordumuzun şücaətindən, döyüş əzmindən danışan Azərbaycan Prezidenti vurğuladı ki, ”Azərbaycan əsgəri otuz illik səbrdən, gözləmələrdən sonra düşmənə və dünyaya göstərdi ki, bizim Qarabağ problemini həll etməyə hər cür imkanımız var, biz buna qadirik. Sadəcə olaraq, biz danışıqlar yolu ilə, sülh yolu ilə məsələnin həll olunmasının tərəfdarıydıq. Ancaq Ermənistanın hərbi siyasi xuntası öz təxribatlarıyla bizi onlara cavab verməyə məcbur etdi”.***

*Əbülfət*
*MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# ERMƏNİ FİTNƏKARLIĞI, YAXUD ERMƏNİ VİRUSU



*Əvəz Mahmud Lələdağ*
*Şair , publisit, dramaturq*

**Buhesabatı yazmağa başlayanda ermənilərin vəhşiliyi, qəddarlığı, amansızlığı,hiyləgərliyi barədə dahi şəxsiyyətlərin dedikləri yadıma düşdü.Böyük ingilis alimi cənab Vilson demişdir:**

-"Ermənilər acgöz, tamahkar, araqarışdırandırlar.Onlar heç kəsi bəyənmirlər.Xırda bir şeyi şişirdib hay-küy salmaqda istedad sahibidirlər, intiriqanı sevirlər".

Fransanın səyyahı Qraf de Söle ermənilər barədə belə yazır:

***"Ermənilərin yoxsulluğu, əzabkeşliyi məndə onlara qarşı böyük rəhm hissi yaratsa da, onların haramzadalığı, kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları o dərəcədə rüsvayçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilmədim!"***

Fransanın istedadlı jurnalisti Jan-Iv yazır:

***"Mən müharibədə çox şeylər olduğunu, almaan əsgərlərinin qəddarlığını eşitmişəm, amma ermənilər onları ötüb keçiblər.Onlar 5-6 yaşlı uşaqları, dinc əhalini vəhşicəsinə öldürürlər".***

İsveçli minbaşı Halmar Pravitzinin dediklərindən:

***"uzun illər yaxın Şərqdə yaşadığım üçün ermənilərin özlərini , Tanrının ən sevimli bəndələri kimi təqdim etmələrini heç vaxt qəbul etməmişəm."***

Kimdir ermənilər?

Qədim tarixçilər onlar haqqında belə demişlər:

***"Ermənilər vəhşi, oğru, gözü götürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, söyüşkən, vəfasız, riyakar olurlar.Ümumiyyətlə onlar başdan ayağa müsbətdən çox mənfiyə yaxındırlar.(Qabusnamə XII əsr)***

Bugünkü savaşda erməni quldurları üzüzə vuruşmadan yayınır, təxribata əl atır.Beynəlxalq hüquq normalarını, müharibə qanunlarını kobud şəkildə pozaraq mülki əhalini hədəf seçmələri vəhşilik deyilmi, ermənipərəst qüvvələr? Biz mülki əhaliyə qarşı humanistlik göstəririk.Azərbaycanda olan müxtəlif dinlərə aid olan abidələr dövlət tərəfindən qorunur.Bəs Ermənistanda?

Ermənilərin dezinformasiyalarına inanıb Azərbaycan hökumətinə irad tutan ermənipərəst cənablar, gəlin bizimlə tarixə səyahət edək.

Bilirəm, faktları görəndən sonra dediklərinizə görə xəcalət çəkəcəksiniz. Nə olsun, onsuz da siz havadarı olduğunuz işğalçı dövlətin təəssübünü çəkdiyinizi gizlətmirsiniz ki!

### *Keçən əsrin əvvəlindən*

**erməni daşnaklan əzəli va əbədi tarixi yurdlarımızı, torpaqlarımızı işğal edə-edə, tarixi saxtalaşdıra-saxtalaşdıra tariximizi siliblər, abidələrimizi yerlə-yeksan edib izimizi itiriblər. 20-ci əsrin əvvəlindən üzü bəri 560-dan çox tarixi memarlıq abidələrimiz, 103 arxeoloji abidə, eksponatinın sayı-hesabı olmayan 22 muzey, 4,6 milyon kitab,927 kitabxana,808 klub, 10 mədəniyyət və istirahət parkı, 85 musiqi va incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı erməni terrorçuları, vəhşiləri tərəfindən yandırılıb, dağıdılıb coxlarının izi-tozu da qalmayıb.**

Musiqi mədəniyyətimizin anası sayılan, xarici qəsbkarlara bac vermayan Şuşa şəhərində Haciağa Məscidini, Mir Mövsüm Nəvvabın xatirə muzeyini, zəngin eksponatlara malik olan Şuşa muzeyini, Gövhər Ağanın məscidini yandırıb yerlə yeksan edən, Üzeyir bəyin, Bülbülün, Natəvan xanımın büstlərini güllələyən erməni quldurları deyilmi?

Milli mədəniyyətimizə dəyən bu yaralara məlhəm qoymaq mümkündürmü? Fikirləşdikcə xəyal biləyimdən yapışıb məni qeyrət ucalığımdan baxmağa məcbur edirisğal altında olan torpaqlarımızı səyahət etmək, bəxtəvər çağlarımda gördüklərimi bir də görmək istəyirəm. Füzuli rayonunda Şərq üslubunda inşa edilmiş Baba türbəsi, Hacı Ələkbər Məscidi gözlərimin önündə dayanır. Doğma kəndimə gedəndə yolumun üstündə, Laçın rayonunun ərazisində olan XVI əsrdə inşa edilmiş Malik Əjdar türbəsi (el arasında ona "Qoşa Kümbəz" deyirlər),Sarı Aşığın, Seyid Əmirin müqəddəs qəbirleri, Soltan Baba türbəsi, Şeyx Əhməd türbəsi, Həmzə Soltan, Soltan Əhməd sarayları, Ağoğlan çayının üstündə tikilmiş müqəddəs məbəd düşmən əli ilə dağıdılıb məhv olanda

*Ehey!!! Ay cavanlar hay verin mənə,*
*Yadlar el yoluna qaya salıblar.*
*Seyid Mirağanın türbə daşını*
*Xaçolar aparıb çaya salıblar...*
*Görən yerindəmi o Sandıq qaya*
*Deyirlər, Qoçdaşı salıblar çaya...*

Qəbirüstü daşları, qəbirləri dağıdıb izini itirəndə hardaydınız demokratiyadan dəm vuran konqresmenlər?

***Fransanın sabiq prezidenti cənab Jak Şirakın bir cümləsi nəzər diqqətimi cəlb elədi. "Fransa Ermənistanın dostu olduğu kimi Azərbaycanın da dostudur" Etirazım yoxdur. Hörmətli cənab prezident, Fransanın dostu Ermənistan, Fransanın dostu Azərbaycanen 20 % torpağını işğal edib, 1 milyon ahalisini yerindən-yurdundan didərgin salınıb, 20 mindən çox ləyaqətli oğul və qızlarını qətlə yetirib. Görün sizin Fransanın səyyahı Qraf de Şöle ermənilər barədə nə yazır.***



"Ermənilərin yoxsulluğu və əzabkeşliyi məndə onlara qarşı böyük rəhm hissi yaratsa da, onların haramzadalığı. kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları o dərəcədə rüsvayçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilmədim". Fransanın istedadlı jurnalisti Jan-İv Yunet yazır:

***"Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə öldürülmüş günahsız insan meyidləri gördük -bunlar qadınlar, uşaqlar qocalar və Xocalının keşikçiləri idi.Bizə alçaqdan uçan vertolyot verdilər.Xocalıda nə baş verdiyinin şahidi olduq.Bizi erməniler sonra atəşə tutdular.Biz çəkilişi axıra çatdıra bilmədik.Bu dəhşətli faciə idi.Mən müharibədəçox şeylər olduğunu, alman asgərini, qəddarlığını eşitmişəm, amma ermənilər onları ötüb keçiblər.ermənilər 5 ,6 yaşlı uşaqları, dinc əhalini vəhşicəsinə öldürürlər".***

Hörmətliermənipərəstlər, əgər bu yazıları bir azərbaycanlı jurnalisti yazmış olsaydı, şübhələnə bilərdiniz.Bunları yazanlar fransız ziyalılarıdır. Sizin dost dediyiniz Ermənistan, erməni daşnaqları Dağlıq Qarabağın 274 yaşayış məntəqəsini, 4389 kv kmərazisini işğal edib. Əhalisi çöllərə düşübqaçqınlıq həyatı yaşayır. "Azərbaycanın mədəniyyatmərkəzi, dağların qoynunda yerləşən, gözəlliyi ilə dünyanı, səyyahları valeh edən Şuşada 1992-ci ilin may ayının səkkizinə kimi 749 qədim yaşayış binası, 15 məscid, 2 mədrəsə, 6 karvansaray, 2 qəsr, 4 türbə, 18 bulaq, 8 hamam, 300-dan çox su quyusu, 15 qala bürcü, 3 zindan, 22 tarixi abidə, 171 memarlıq abidəsi, 160 incəsənət abidəsi, 967 m2 daş döşənmiş küçə, 190 hektar mühafizə zonası, 870 m2 qala divarı, qəbiristanlıqlar, ocaqlar, pirlər və s. olmuşdur. Kürthacılı Soltan bəyin oylağı Laçının 120 yaşayış məntəqəsi, 1835 kv km. ərazisini itirdi. Murov dağın vüqarı ilə öyünən Kəlbəcərin 120 yaşayış mantaqəsi, 1936 kv km. ərazisi kimsəsiz qaldı.

Qarabağın ürəyi olan Ağdamın 83 yaşayış məntəqəsi, 1093 kv km ərazisi, eləcə də Xaçın türbəsi (1314) bir göz qırpımında düşmənə qaldı. Bir zamanlar Cəbrayıl qəzası kimi tanınmış Cəbrayılın 77 yaşayış məntəqəsi, 1050 kv km. ərazisi,iki Tağlı Xudaferin körpüsü (XI-XIIəsrlər), 15 Tağlı Xudafərin körpüsü (XIII əsr) əlimizdən çıxdı. Böyük Füzulinin adı ilə fəxr edən Füzulinin 14 kilometr qərbində yerləşmiş Azıx mağarası bizim eradan əvvəl yaradılmışdır.Bu qeyri-adi mağara dünyanın ən qadim yaşayış məskəni sayılırdı.Aparılan araşdırmalar nəticəsində də məlumdur ki, Azıx mağarasının sakinləriəcdatlarımız olub.

Təəssüf ki, dünya əhəmiyyətli bu tarixi yerdən indi ermənilər silah anbarı kimi istifadə edirlər.Bundan başqa Füzulinin 73 yaşayış məntəqəsi, 1386 KV km. ərazisi əlimizdən getdi. Qaçaq Nəbinin yurdu Qubadlı 94 yaşayış məntəqəsini, 802 kv km. ərazisini Həkəri və Bərgüşad çayina tapşırdı. Zəngilanın 81 yaşayış məntəqəsi, 707 kvkm. ərazisi talan edildi. Kəlbəcər rayonundaki Gəncəsər monastrı (1238-ci il) dünya əhəmiyyətli tarix va mədəniyyət abidələridir ki, onlar da düşmən tapdağı altındaqaldı.Bütövlükdə Ağdamda 44, Qubadlida 31, Zangilanda 2 Kəlbəcərdə 39, Laçında 54, Füzulidə 52, Xocalıda 16. Xocavənddə 53, Cəbrayılda 16, Şuşada 228 (1 dünya, 110 respublika, 117 yerli əhəmiyyətli), Xankəndində 1tarix va mədəniyyət abidəsi işğal edilmişdir. Zəbt olunmuş rayonların ərazilərində 10 mədəniyyət evi, 55 klub, 33 şəhər, 11 uşaq, 691 kənd kitabxanaları, 18 muzey, 4 mədəniyyət və istirahət parkı, 48 uşaq musiqi, incəsənət va rəssamlıq məktəbi, 3 teatr va 3 rəsm qaleriyası qalib. Beləliklə 953 yaşayış məntəqəsi, 13486 kv km. ərazisi əlimizdən çıxdı.

***Azərbaycanda, öz vətənində 1 milyon insan qaçqın, köçkün vəziyyətinə düşdü, ağır şəraitdə yaşamalı oldu.Xocalı yer üzündən silindi. Mayor Leonid Kravets adlı ziyalının Xocalı barədə dediklərindan:***

**"26 fevralda mən yaralıları daşıyırdım.Mən özüm 200-ə qədər öldürülmüş və səpələnmiş adamlar gördüm.Sonra uçduq, ölüləri götürmək istədik.Bizimiləbiryerlikapitandavaridi, adıyadımdan çıxıb.O ölülərarasında özünün 4 yaşlı oğlunutapdı. Onunkəlləbeynidağılmış.Kapitanağlını itirdi.Götürəbilmədiyimizbaşqauşağınbaşı kəsilmişdi.Bizheryerdəvəhşicəsinətəhqirolunmuş qadın, uşaq, qocameyidlərigördük",**

ƏhmədbəyAğayev 1906-cı ildə yazırdı:

***"Yer üzərində Allahın yaratdığı nə qədər vəhşi va yırtıcı varsa, onlar başqa heyvanları parçalayırlar, amma özhəmcinslərinə toxunmurlar.Nə acıdır ki, vəhşi heyvanların etmədiklərini ermәniler etdilər.Tarixdə buna bənzər heçbir hadisəyə rast gəlməmişik".***

Hörmətli ermənipərəstlər, bu barədə düşünmək olar, olmaz?

Gəlin tarixə səyahət edək.Şahidlərin dediklərinə qulaq asaq. Həsən Həsənovun dediklərindən:

***- "1912-ci ildə İrəvan şəhərində Yusif küçəsindəki 24 N-li evdə dünyaya gəlmişəm. Uşaqlıq və gənclik illərim orada keçib. İrəvan və onun ətrafı xalqımızın qədim yaşayış məskənlərindən biri idi. Hələ uşaqlıq illərindən eşitdiklərim və sonralar canlı şahidi olduğum hadisələr göstərir ki, İrandan, Turandan torpaqlarımıza köçürülmüş ermənilər üzdə üzümüzə gülüb, daldada da qırmızı yamanlayır, ayağımızın altını eşirdilər. Öz əlimizlə öz başımıza oyunlar açırdılar. "Böyük Ermənistan" yaratmaq xülyasına düşürdülər. Saxtakar erməni tarixçiləri öz uydurmaları ilə başları dumanlandırır, erməni xalqının qədimliyi baradə yalanları həqiqət kimi gözə soxmağa çalışırdılar. Yalanları bizim də beynimizə yeritmək istəyirdilər.***

***İrəvan adının yaranması da, İrəvan xanlığının Azərbaycanın 9 xanlığından biri olması və əhalisinin azəri-türklərindən ibarət olması da hamıya bəllidir".***

Bizə məlum olan budur ki, 1390-cı ildən 1828-ci ilə qəder, 500 ilə yaxın bir dövrdəburanı azəri türkləri idarə edib. 1828-ci illərdəİrandan, Turandan gələn ermәniler "Özümə yer eləyim, gör sənə neyləyim" əməli ilə işə girişiblər. Onlar yerlərini möhkəmlətdikcə torpaq iddiaları da artırdı. Həsən müəllim sözünə davam elədi: "Bununla belə hələəsrin əvvəlində şahidi olduğum bəzi məsələlərdən söhbət açmağı lazım bilirəm.

**(ardı növbəti sayımızda)**

# "Torpaqlarımız uğrunda döyüşürük"

**"Əsrlər boyu torpaqlarımızda gözü olan, əlinə fürsət düşdükcə torpaqlarımızı zəbt etməyə çalışan və zəbt edən işğalçı, terrorçu ermənilər öz çirkin əməllərini davam etdirməkdədir. Tarixə nəzər salsaq, görərik ki, Ermənistan adında bir dövlət olmayıb. Ermənilərin necə bir vandal, barbar millət olduğunu 1-ci Qarabağ müharibəsindən hamı bilir. 90-cı illərdə qadın, uşaq, yaşlı demədən süngüdən keçirdilər. Hamilə qadınları vəhşicəsinə öldürdülər. 1980-ci illərin axırlarından başlayaraq hələ ermənilər məkrli niyyətlərini həyata keçirməyə başlamışdılar. 1-ci Qarabağ müharibəsində işğalçı Ermənistan havadarlarının dəstəyi ilə 1 milyona yaxın soydaşlarımızı dədə-baba yurdlarından silah gücünə, zorla didərgin saldı. 30 ilə yaxındır ki, soydaşlarımız qaçqındırlar.**

Bilirsiniz, mən Ermənistanla sərhəd rayonu olan Ağstafada doğulub boya başa çatmışam. Müharibənin nə olduğunu gözəl bilirəm. Qarabağ müharibəsi zamanı bibimoğlu şəhid olub. Sizə bir şey deyim, hələ 90-cı illərdə Ordumuz tam formalaşmamışdı. Ona görə də ermənilər havadarlarının köməyi ilə torpaqlarımızı işğal etdi. O vaxt insanlarımız əliyalın idi. İndi isə bizim nizamlı və güclü ordumuz var.

30 ilə yaxındır ki, danışıqlar gedir. Ölkə olaraq atəşkəs dövründə üzərimizə düşən öhdəlikləri yerinə yetirsək də, xain ermənilər öz çirkin əməllərindən əl çəkmədi. 30 il ərzində baş tutmuş danışıqlar zamanı ortaq məxrəcə gəlinməməsinin tək məsuliyyəti Ermənistanın üzərinə düşür. Bu illər ərzində ermənilər atəşkəs rejimini kobud şəkildə dəfələrlə pozaraq sərhədyanı ərazilərimizi atəşə məruz qoyublar. Hər kəsə məlumdur onların törətdiyi cinayətlər. Neçə dəfə dinc əhalini hədəfə alıblar və hələ də almaqdadırlar. Bu illər ərzində BMT Təhlükəsizlik Şurasının qərarlarına riayət edib torpaqlarımızdan qeyd-şərtsiz çıxmaq əvəzinə əksinə işğal etdikləri ərazilərdə möhkəmlənmək istəyiblər. Bütün bunlar azmış kimi yeni-yeni əraziləri də işğal etmək istəyiblər. Lakin bizim güclü Ordumuz var və Ordumuz hər dəfəsində işğalçı ermənilərin layiqli cavabını verib".

**Bu sözləri "Ədalət" qəzetinə açıqlamasında Akademik Milli Dram Teatrının aktyoru Cümşüd Zeynalov söyləyib:**

"27 sentyabr tarixində ermənilər növbəti dəfə atəşkəs rejimini pozaraq hücum əməliyyatı həyata keçirdi. Buna cavab olaraq Ordumuz əks-hücum əməliyyatına başladı. Düşmən hücumunun qarşısı güclü



Ordumuz tərəfindən peşəkarlıqla alındı və hələ də alınır. Bu gün Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmənə layiqli cavab verilir.

Bu gün Ermənistan döyüşmək üçün əsgər tapa bilmir. Orduya qadınları, yaşlı adamları zorla gətirirlər. Bizdə isə 10 minlərlə insan könüllü olaraq döyüşə yazılıb. O insanlardan biri də mənəm. Döyüşlərdə iştirak etmək, torpaqlarımızın azadlığı uğrunda canımdan, qanımdan keçməyə hazıram.

Bu gün vəzifəsindən, tutduğu mövqeyindən, kimliyindən asılı olmayaraq hamı Cənab Prezidentin ətrafında yumruq kimi birləşib. Əminəm ki, bu birlik bizi Qarabağımıza qovuşduracaq.

Bizim davamız haqq davasıdır. Biz öz torpaqlarımız uğrunda döyüşürük. Bizim heç kimin torpağında gözümüz yoxdur. Ermənistan rəhbərliyi istər hərbi, istərsə də diplomatik sahədə uduzduğunu gözəl bilir. Lakin torpaqları vermək istəmir ki, istəmir. Cənab Prezident dəfələrlə deyib ki, öz xoşunuzla torpaqlarımızdan çıxın.

Paşinyan ona-buna yalvararaq humanitar atəşkəs istəyirdi. Noldu? Atəşkəs oldu. Lakin yenə də dinc oturmadılar. Atəşkəsin üstündən heç 1 gün keçməmiş erməni xisləti yenidən öz işini gördü. Gəncədə terror aktı törətdilər. Bu insanlığa sığmayan bir haldır ki, mülki əhalini yatdığı yerdə raket zərbəsinə məruz qoyasan. Dünya ictimaiyyəti bunu şiddətlə qınamalıdır. Dinc, günahsız insanlara qarşı bu vəhşilik heç bir əxlaqa sığmır.

İnşaAllah bu haqq savaşında haqlı olan Azərbaycan zəfər çalacaq! Allah hərbçilərimizi və əsgərlərimizi qorusun. Dualarımız onlarladır. Düzdür, şəhidlərimiz də olur. Müharibə varsa, şəhid də verəcəyik, təki Vətən sağ olsun! Şəhid analarının qarşısında baş əyirəm. Həmin analara deyirəm ki, övladlarının qanı yerdə qalmayacaq! Mütləq qisasları alınacaq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

**Rövşən Tahir**

# ""Qarabağ şikəstəsi"nin tarixi çox qədimdir"

***"Arzularım çoxdur. Söhbət Qarabağdan gedirsə, həqiqətən, çoxdur. İstərdim ki, Şuşamızda Məcnun obrazını canlandıram. "Leyli və Məcnun" tamaşasını Qarabağın təmiz havasından udub suyundan içərək oxumaq başqa bir hiss olar. Allah qismət eləsin, torpaqlarımız azad olunsun və arzum çin olsun". "Ədalət" qəzetinin qonağı Opera və Balet Teatrının solisti, Əməkdar artist, Prezident Mükafatçısı Elnur Zeynalovdur.***

**-Bilirəm ki, Qarabağ bölgəsindənsiniz...**

-Bəli, mən Qarabağlıyam. Ağdamın Güllücə kəndindənəm. Orada doğulmuşam, 12 yaşıma, torpaqlarımız işğal olunana qədər orada yaşamışam. Uşaqlığımda Şuşa, Laçın, Kəlbəcər, Ağdərə kimi rayonlarımızda çox olmuşam, Qarabağın gözəlliklərinin gözlərimlə görmüşəm. İşğal olunmuş rayonlarımızda atam məni çox gəzdirib. Qarabağ hər birimizin yaralı yeridir. Qarabağ mənim üçün 30 mindən çox şəhid deməkdir. Qarabağ mənim üçün Xocalım deməkdir, ata-baba yurdum deməkdir. Qarabağ Pənahəli xan deməkdir. Artıq ağrılı-acılı günlərimiz geridə qalmaqdadır. Ali Baş Komandanın əmri ilə Ordumuz torpaqlarımızı işğaldan azad edir. Allah əsgərlərimizin hər birinə kömək olsun.

**-Bu bölgənin insanlarının çoxunda ürəyəyatımlı bir səs olur. O səs sizdə də var. Nə zamandan muğama meyil göstərdiniz?**

-Deyərdim ki, hər bir Qarabağlıda səs olur, kimisi sənətin arxasınca gedir, kimisi yox. Uşaqlıqdan musiqi ilə məşğul oluram. Yalnız keçid dövründə oxumadım. Keçid dövründən sonra Allah yenidən bu səsi mənə verdi. 2005-2006-cı illərdən isə artıq peşəkarcasına sənətlə məşğulam, professional səhnədəyəm.

**-Ailənizdə sizdən başqa bu sənətlə məşğul olan kimsə varmı?**

-Ailəmdən hazırda kimsə bu sənətlə məşğul olmur. Düzdür, atamın gözəl səsi var, amma təəssüflər olsun ki, bu sənətlə məşğul olmayıb.



**-Opera və Balet Teatrında da çalışırsınız...**

-Artıq 13 ildir ki, Opera və Balet Teatrında işləyirəm. Demək olar ki, milli tamaşalarımızın hamısında baş rolları ifa etmişəm. "Leyli və Məcnun", "Aşıq Qərib", "Əsli və Kərəm" tamaşalarında baş rolları sevə-sevə oynayıram.

**-Elə bir arzunuz varmı ki, Məcnun obrazını Qarabağda canlandırasınız?**

-Arzularım çoxdur. Söhbət Qarabağdan gedirsə, həqiqətən, çoxdur. İstərdim ki, Şuşamızda Məcnun obrazını canlandıram. "Leyli və Məcnun" tamaşasını Qarabağın təmiz havasından udub suyundan içərək oxumaq başqa bir hiss olar. Allah qismət eləsin, torpaqlarımız azad olunsun və arzum çin olsun.

**-Bildiyimə görə, övladınız dünyasını dəyişib. Allah rəhmət eləsin...**

-Allah bütün ölənlərə rəhmət eləsin. İlk övladım 1 yaşında qəfil dünyasını dəyişdi. Sağlam uşaq idi. Heç bir problemi yox idi. Bir gün səhərə yaxın gördük ki, uşaqda xırıltı var, xəstəxanaya apardıq, 10 günə yaxın xəstəxanada qaldı. Həkimlərin səylərinə baxmayaraq dünyasını dəyişdi. Allah övlad acısını kimsə yaşatmasın.

**- "Qarabağ şikəstəsi"ndən söhbət açaq...**

-"Qarabağ şikəstəsi"nin tarixi çox qədimdir. Sənətkarlarımızın səsindən süzülüb bu günə gələn bir şikəstədir. Yeni nəsildə onu sevə-sevə oxuyur. Qarabağımız işğal altında olduğu üçün mən "Qarabağ şikəstəsi"nin sözlərində dəyişiklik etmişdim və çox da yaxşı qarşılanmışdı. Bu dəyişiklik bir növ dünyaya isməric idi ki, Qarabağımız viran qalıb. İndi isə düşünürəm ki, şikəstəni olduğu kimi oxumağım üçün az bir müddət qalıb.

**-Torpaqlarımız işğaldan azad olunur...**

-Torpaqlarımızın işğaldan azad olunması xəbərlərini eşitmək adamı qürurlandırır. Bu hissi mən heç vaxt yaşamamışam, heç vaxt. Sözlərlə deyiləcək bir hiss deyil. İnşaAllah ki, Şuşa azad olunar, Qarabağımız tam azad olunur və biz bu barədə daha geniş danışarıq.

**-Başqa deyəcəkləriniz varmı?**

-Əsgərlərimizə yalnız qələbə arzulayıram. Canları bahasına tarix yazırlar. Allah Dövlətimizi, Ordumuzu, Xalqımızı qorusun.

**Rövşən Tahir**



***Arif Ərşad***

# KƏNDDƏN BAĞLAMA VAR

**Hekayə**

Xoruzun ilk banından sonra yatağından qalxan Sadıx kişi paltarlarını əyninə keçirib həyətə düşdü. Səhər idmanı edirmiş kimi qollarını sağa-sola yellədi, bir-iki dəfə oturub durduqdan sonra həyətdəki su kranına tərəf gedi, mıxcadanasılmış məhrabanı boynuna atdı, sonra kranını açıb əl-üzünü yudu.

Üz-gözünü qurulayandan sonra məhrəbanı yenidən mıxcadan asıb, evin böyründəki bağa keçdi. Tutağacına yaxınlaşıb budağını aşağı əydi, iştahla tut yeməyə girişdi. Tövlədən gələn qoyun-quzunun mələşmə səsi onu,tutlarını həvəslə yediyi ağacından aralanmağa məcbur etdi.Qolundakı saata baxdı, saat yeddiyə on beş dəqiqə işləyirdi.Tövləyə yaxınlaşıb qapısını açdı. Qoyun-quzu mələşə-mələşə tövlədən çıxıb həyət darvazasına doğru getdi. Sadıx kişi sürünü qabağına qatıb kəndin mərkəzi küçəsinə tərəfapardı. Mərkəzi küçə deyəndə ki, yüz qırx evdən ibarət olankəndin torpaq yoldan ibarət cəmi bir küçəsi var idi. Evlər də səliqə ilə yol boyunca tikilmişdi. Bu yol öz başlanğıcını kəndin birbaşında tikilən məktəb və poct şöbəsindən alırdı, kəndin o biri başında olan mağaza, klub və idarə binasının yanında da sona çatırırdı. Sadıx elə həmin o mərkəzi küçənin qırağında, özünün iyirmiyə yaxın qoyun-quzusu ilə kəndin qoyun nobatını gözləyən İsrafil kişiyə yaxınlaşdı. Sadıx kişinin qoyunları tez qaçıb İsrafilin qoyunlarına qarışdı.

- Sabahın xeyir olsun, ay İsrafil. Nobat hələ keçməyib ki?-deyərək ona əl uzatdı.

- Sabahın xeyir.Yox, keçməyib. Harda olsa bir-iki dəqiqəyə gələr - deyən, İsrafil gözlərini yola dikib baxdı. Sonra:- Ay Sadıx, bugün nobatda kimin növbəsidir, bilmirsən?

Sadıx uzaqdan, kəndin o başından gələn qoyun sürüsünə baxaraq İsrafilə cavab verdi:

- Odur ey, sürü gəlir. Əslinə qalsa mənim növbəmdir, amma bu gün rayona iclasa getməliyəm, ona görə də məni Musa kişi əvəz eliyir. Mən də onun yerinə sabah nobata gedəcəm.

İsrafil başını yelləyərək dilləndi:

- Deyirəm bu hökümət də kefdi ey vallah, ə, gündə iclas olar?

- Demə ay İsrafil, bu bir ili də bir təhər başa vursaydım, rahatca təqaüdə çıxardım. İsrafil, sən sürünü nobata qat, mən gedim evə əynimi dəyişim, yoxsa iclasa gecikərəm...

Sadıx kənddə çox da böyük olmayan poçt şöbəsinin rəisi idi. Özündən başqa cəmi iki işçisi vardı. Bir əməliyyatçı Yeganə, birdə poçtalyon Pərcahandan ibarət olan bu şöbə açılan gündən ona Sadıx rəhbərlik edirdi. Rəhbərlik edirdi deyəndə ki, poçtun işi elə də ağır deyildi. Az-çox məktub yazan olsa da, bir iki nəfər abunə ilə qəzet alsa da, başqa əməliyyatlar demək olar ki,olmurdu. Təqaüdçülərə verilən təqaüdləri nəzərə almasaq, nə başqa yerə pul göndərən var idi, nə də başqa yerdən kiməsə pulgəlmirdi. Kənddə hamının evində telefon olduğundan, hərə əlində bir mobil telefon gəzdirdiyindən, başqa yerlərə zəng etməküçün poçta qoyulan telefon aparatını da toz basmışdı. Kənddə elə cavanlar var idi ki, əllərində iki telefon gəzdirirdi. Mobiltelefonu olmayan bir adam var idisə, o da Sadıx özü idi. Kənd cavanları əsgərliyə gedəndə hər kəsdən çox sevinən bəlkə dəSadıx olurdu. Çünki sonradan əsgərlərə göndərilən bağlamaların sayı poçtun bağlama göndərmə planının göstəricisinə müsbət təsir edirdi. Son altı ay ərzində isə kənddən bir nəfər olsa heç yerə poçt bağlaması göndərməmişdi. Sadıx hiss edirdi ki, əgərbu iclasda poçtun işindən söz düşsə, bu zəhrimara qalmış bağlama məsələsinə görə ona irad tutacaqlar. Bəlkə heç ona sözdeyən olmayacaq, bəlkə heç poçt yada düşməyəcək, nə bilmək olar ki, iclasdı da, hər şey ola bilər...

Sadıx həyət darvazasından içəri girəndə arvadı Tavat inək sağırdı. Sadıx armud ağacının altında yerə sərilmiş palazınüstündəki döşəkçələrin birinin üstündə oturdu. Arvadın işini qurtarmasını gözləməyib təzəcə qaynayan samovardan özünə birstəkan çay süzdü. Tavat arvad sağdığı südü süzüb ocağın üstünə qoydu. Sonra süfrəyə təndir çörəyi, pendir, kərə yağı,qaynadılmış yumurta düzərək ərinin yanında özünə yer etdi. Samovardan bir stəkan çay süzüb öz qabağına qoydu. Qaynarçayı üfürə-üfürə içərək dilləndi:

- Kişi, sən bu gün nobata getməli deyildin?

Sadıx düzəltdiyi dürməkdən dişləyib cavab verdi:

-Günümü dəyişmişəm, sabah gedəcəm, bu gün rayona iclasa gedirəm. Sən mənim kostyumumu hazırla, ağ köynəyimi ütülə,onu geyəcəm. Gör o qara qalstukum hardadır, onu da tap.

-Bəs sən sabah, şənbə-bazar şəhərə gedirdin, nəvələrə mer-meyvə aparırdın, nə oldu?

-İclas girdi araya da. Şənbə günü də nobatdayam, eybi yoxdur, nobatdan sonra gedərəm, nəvələri görərəm, bir-iki günə də qayıdaram. Sən onların pay-puşunu hazırla, heç nə yadından çıxmasın ha.

-Narahat olma, a kişi, elə şey yaddan çıxar?- deyən,Tavat çayını içdi. Rabitəçilər yavaş-yavaş yeni tikilən mərkəzi poçtun iclaszalına toplaşırdılar. Saat onda başlayan iclasın işi günorta saat ikiyə qədər çəkdi. Rayon rəhbərlərinin də iştirak etdiyi iclasda mərkəzi poçtun yeni təyin olunmuş müdiri bir-iki nəfər idarə müdürünü çıxmaqla, demək olar ki, hamının işinə bir-bir öz iradınıbildirdi. Sadıxı da ayağa qaldırıb ondan poçtun işində dönüş yaratmağı tələb etdi, verilən arayışlara əsasən son iki rübdə poçtdan bircə dənə də olsun bağlama göndərilməməsini onun yadına saldı və:

-Belə gedərsə təqaüd yaşından əvvəl işdən gedəsi olacaqsan, Sadıx müəllim,- deyib poçtla bağlı fikirlərini bitirdi.

Dörd saat çəkən iclas nəhayət ki, bir neçə işçinin fəxri fərmanla təltif olunması ilə başa çatdı.

Sadıx avtobusdan evinin yanında düşəndə, günortadan xeyli keçmişdi. Darvazadan içəri girən kimi həyətdəki armud ağacının kölgəsində arvadının sacda bişirdiyi yuxaların ətiri onu məst etdi. Pencəyini, qalstukunu çıxardıb ağacdan asdıqdan sonarasacın yanındakı döçəkcənin üstündə bardaş qurub oturdu. Arvadının isti yuxanın arasına pendir qoyaraq büküb ona verdiyidürməyi iştahla yeməyə girişdi. Sonra arvadının əlindən şişi alıb sacın üstündə olan yaymanı çevirməyə kömək etdi. Arvadı kündəni oxlovla açaraq:

-İclas necə keçdi?-deyə, soruşdu.

Sadıx da əlini yelləyib:

-Necə keçəcək, o ki, var dannadılar,- dedi.

Tavat əlinin işini bir anlıq saxladı:

-Niyə ki, nə üstündə, a kişi?

-Nə bilim ee, dedilər ki, niyə camaat bağlama göndərmir. Mən neyniyə bilərəm ki? Kimsə bağlama göndərmək istədi, mən dəpoçt müdürü olub qabağını aldım?

Sadıx iclasda ona aid olan hissəni təfsilatı ilə arvadına danışdı. Son cümləsini deyəndə Tavat əsəbləşdi:

-Ay siz öləsiz, çıxardarsız! Səni yiyəsiz görüblər? Təqaüdə bir il qalan adamı da işdən çıxardarlar, ay başıvıza dönüm?

-Demir ee çıxardıram, deyir ki, dönüş yaratmasan çıxardacam,- deyən Sadıx söhbəti yumşaltmağa çalışdı.

-Bəs onda, bu basa-basda sən necə gedəcəksən şəhərə, poçtun qapısını qıfıllayacaqsan? Bəs bu bağlama planın nə təhərolacaq, a kişi?

-Boş-boş danışma, ay arvad, poçtun qapısını bağlamaq olar? Mən gələnə qədər, Yeganə məni bir-iki gün əvəz edər. Narahatolma, iki günlə dünya dağılmaz, qayıdandan sonra işimdə dönüş yaradaram da,- deyən Sadıx son sözlərini deyəndə qanı yenə qaraldı.

Səhəri günün axşamı qoyun nobatından dönən Sadıx yuyunub kostyumunu geyindi, qalstukunu taxdı, sonra da arvadının ona açdığı şam süfrəsinin arxasına keçdi. Tələsik bir-iki tikə yeyəndən sonra evdən çıxıb sonuncu avtobusa əyləşdi və rayon mərkəzindəki dəmir yol vağzalına gəldi. Bakıya gedən qatarın gəlməsinə hələ yarım saat qalırdı. Biletini alıb vağzalın həyətindəki oturacaqda oturub qatarın gəlməsini gözləməyə başladı. Birdən, yanında yerə qoyduğu əl çantasına baxıb əsəbləşərək, öz-özünə deyinməyə başladı:

-Əə, bu arvad da qocaldıqca lap başını itirir ey, deyəsən. Bəs bu mənə yol tədarükü görürdü, uşaqlara mer-meyvə qoyurdu,bəs niyə qoymayıb? Özüm də dilimnən tapşırdım ey.Yadımdan çıxmaz, yadımdan çıxmaz... Ay sənin yadıva nə deyim?

Qatarın fit səsi Sadıxı fikirlərindən ayırdı. Əl çantasını götürüb dilxor halda perronda dayanan qatara tərəf addımladı...

İki gün idi ki, Sadıx oğlunun evində, nəvələri ilə xoş günlər keçirirdi. Sabah axşamkı qatara bilet aldığından, arxayınca səhər yeməyini yeyən kimi nəvələrinin əllərindən tutub bulvara gəzməyə apardı. Oğlu ilə gəlini işdə olduqlarından nahar yeməyini dənəvələri ilə birlikdə bulvardakı kafelərin birində yeyib evə qayıtdı. Qapıya yaxınlaşanda ev telefonunun zənginin səsini eşidib,tələsik qapını açdı. Uşaqları qapıdan içəri salınca, telefon zəngi susdu.

"Yəqin arvaddı, narahat olub zəng eliyir. Belə narahat olan idin, bağın meyvəsindən, motalından, qapımda əkdiyim tərəvəzdən,kartofdan, beş-altı büküm yuxadan, toyuqdan, cücədən yolub qoyardın bir çamadana, gətirərdim də uşaqlara. Nə təhər olur ey,nəvələr yadıva düşür, onlara pay-pürüş qoymaq yadıva düşmür?"-deyərək, öz-özünə danışdı.

Bir az sonra telefon zəngi yenidən çalındı, Sadıx tez telefonun dəstəyini qaldırıb cavab verdi:

-Alo,eşidirəm.

-Salam, bağışlayın, bayaqdan bir neçə dəfə zəng vurmuşam, amma telefonun dəstəyini qaldıran olmadı. Bura Taleh müəlliminevidir?

-Bəli qızım, onun evidir. Mən də onun atasıyam, nə lazımdı ki?

-Danışan poçt şöbəsindən əməliyyatçı Mehriban xanımdır. Taleh müəllimə kənddən on iki ədəd bağlama gəlib, saat altıyaqədər gəlsin aparsın. Yoxsa sabaha qalsa içindəki ərzaqlar xarab ola bilər. Sağ olun!..

Sadıx bağlamaları evə qaldırmaqda oğluna köməklik edib qurtarandan sonra divanda əyləşib, maraqla gəlininin bağlamaları açmasına tamaşa etməyə başladı. Bağlamaların içindən çıxan ərzaqlara, meyvələrə, yolunub təmizlənmiş çolpalara baxıb gülümsündü. Özündən ixtiyarsız:

-Sağ ol e, ay arvad, səndən yoxdu, vallah... Bax bu da sizə bağlama planı. Hə, indi işdən çıxardın görüm, necə çıxardırsınız?Tavat sizin başınızda turp əkər, turp-dedi.

Taleh atasının dediyi "turp" kəlməsini eşidib çaşqın halda dilləndi:

-Ata, anam turp göndərməyib axı, ürəyin istəyirsə gedim bazardan alım?

Sadıx gülümsəyərək oğluna cavab verdi:

-Yox istəmirəm. Anan hələ turp əkməyib, əkəndə bir bağlama da turp göndərər. Narahat olma...

## Sabiq "Qarabağ"lı Gəncə terrorunu pislədi



*Azərbaycanda çıxış etmiş daha bir futbolçu Ermənistan silahlı qüvvələrinin atdığı raket nəticəsində Gəncədə baş verən hadisəyə münasibət bildirib.*

*Qol.az xəbər verir ki, "Qarabağ"ın sabiq qapıçısı Vaqner da Silva erməni terrorunu pisləyən paylaşım edib.*

*Braziliyalı qolkiper İnstaqram səhifəsində "Gəncə üçün dua et" haştaqlı şəkli paylaşıb və ölənlərin ailələrinə başsağlığı verib.*

*Qeyd edək ki, Vaqner Silva 2018-2020-ci illərdə Ağdam klubunda çıxış edib*

## "Yuventus" və PSJ Ramosla maraqlanır

*"Real"ın kapitanı Serxio Ramos 2021-ci ilin yayında "Yuventus" və ya PSJ-yə keçə bilər.*

*Qol.az xəbər verir ki, hər iki klub ispan müdafiəçinin Madrid təmsilçisi ilə danışıqlarını yaxından izləyir. Əgər o, "Real"la bu mövsümün sonu başa çatacaq müqaviləni yeniləməsə, "Yuventus" və PSJ Ramosu transfer etməyə çalışacaq.*

*Qeyd edək ki, 34 yaşlı futbolçu 2005-ci ildən "Real"da oynayır.*

## UEFA prezidenti Qarabağ münaqişəsindən danışdı

**UEFA prezidenti Aleksandr Çeferin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikrini açıqlayıb.**




Qol.az-ın xəbərinə görə, o, Danimarkanın "Sportschau" nəşrinə müsahibəsində bildirib ki, rəhbərlik etdiyi qurum vəziyyətin yaxından izləyir. Şeferin münaqişənin detalları haqda məlumatlı olmadığını da söyləyib: "Biz siyasi qurum yox, idman təşkilatıyıq. Siyasi mübarizəyə qoşulmaq istəmirik. Bir neçə həftə əvvəl başladığından, bu da bizim üçün yenilikdir. Bu, kədərli məsələdir və ümidvaram ki, məsələ sülh yolu ilə həll ediləcək". Jurnalist Daqlıq Qarabağdakı münaqişənin gələn Bakıda keçirilməsi nəzərdə tutulan "Avro-2020"nin matçlarına təsir edib-etməyəcəyi ilə də maraqlanıb: "Bu haqda nəsə demək çətindir. Nəzəri baxımdan Avropa çempionatını 12 yox, 11 ölkədə, hətta 1 ölkədə keçirmək mümkündür. İstədiyimizi edə bilərik. Problem ondadır ki, artıq yarış üzərində işləmişik, hər şey hazırdır. İndi nəyisə dəyişsəydik, bu, ciddi səylər tələb edəcəkdi. Hələlik hadisələrin inkişafını izləməliyik".

Mərhum Məmmədov Şamil Məcid oğlunun adına məxsus Kürdəmir rayon Dəyirmanlı kəndində yerləşən 31.08.1999-cu il tarixində verilmiş JN:102 saylı Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

DİN-in Quba rayon Polis Şöbəsi tərəfindən Kəbiyev Nurlan Rövşən oğlunun adına verilmiş AZE 56737 seriya nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas Ağ Partiyasının sədri **Tural Abbaslıya** qardaşı

**TEYMUR ABBASLININ**

Şəhid olmasından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Məzahir Əhmədzadə **Daşdəmir Əjdəroğluna** atası

**ƏJDƏR kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu **Loğman Rəşidzadəyə** bacısı

**MARAL xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 14.10.2020